RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 276 (9155) ŞƏNBƏ, 17 dekabr 2022-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



# MİLLİ BİRLİK BELƏ OLUR

## Bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşının ürəyi Laçın yolundakı etirazçılarla birgə döyünür




**Bu gün Şuşa-Laçın yolunda iki tərəf, iki mövqe qarşı-qarşıya dayanıb:**

**Bu yerlərin sahibləri ilə gəlmələr!**

*Sülh tərəfdarları ilə qisas haqda düşünənlər!*

*Əliyalın mülki insanlarla əlisilahlı hərbçilər!*

*Ədalətlilər və güclülərlə haqsızlar və yalançılar!*

**Əslində, qaliblərin qarşısını məğlublar, riyakarlar və məkrlilər kəsiblər!**

**Bəli, Azərbaycan tərəfi qalib gəlsə də, yenə sülh təklif edir.**

**Kapitulyasiya aktında irəli sürdüyü tələblərə və şərtlərə dinc yolla çatmağa çalışır.**

"Dəmir yumruq"la diz üstə qoyulan ermənilərin isə hələ ağılları başlarına tam qayıtmayıb.

Sülh sazişinin imzalanmasını müxtəlif bəhanələrlə uzadırlar.

Köhnə ağalarını yenisi ilə dəyişib-dəyişməyəcəklərini qətiləşdirməkdə çətinlik çəkirlər!

*Rusiya və İranın vasitəsilə yenidən silahlanır, əzilmiş ordularını ayağa qaldırmaq xülyasına düşürlər!*

*Azərbaycanın təbii sərvətlərini aşkar-gizli formada daşıyıb aparırlar!*

*Bizə öz ərazilərimizdə monitorinq keçirməyə mane olmağa çalışırlar!*

**Qısası, odla çox təhlükəli oyunlar oynayırlar!**

❖ ❖ ❖

Altıncı gündür ki, Azərbaycan jurnalistləri, vətəndaş cəmiyyəti nümayəndələri, ictimai fəallar RSK postu qarşısında dinc aksiya keçirməklə rus generalı Volkovla görüş tələb edirlər!

Altıncı gündür ki, general Volkov əliyalın, qadın və kişilərdən ibarət dinc insanların qarşısına çıxmır, onlarla görüşdən boyun qaçırır.

Səbəbi...

*Ehtimallar çoxdur:*

* Ekoloqların "Qızılbulaq" və "Dəmirli" mədənlərində monitorinq aparmalarına şərait yaradacağına dair verdiyi "general sözü"nə əməl edə bilmədiyinə görə xəcalət çəkir, adam üzünə çıxa bilmir;

* Ermənilərin (yeni "nazir" Vardanyanın) ona etdikləri "hörmət"in əvəzini monitorinqə maneçilik törətməklə çıxmağa çalışır;

* Qəsdən gərginlik, qarşıdurma yaradılır ki, sülh müqaviləsinin imzalanması baş tutmasın.

*Həqiqətə yaxını isə budur ki, hələ siyasi qərar verilmədiyindən sülhməkrlilər nə edəcəklərini kəsdirə bilmirlər!*

**General sözündən qaçsa da, azərbaycanlı kişi və qadınlar dediklərinin üstündə möhkəm durublar: öz torpaqlarında istədikləri yerdə monitorinq keçirməsələr, yerlərindən tərpənən deyillər!**

❖ ❖ ❖

*Əsrlərdir "soyqırımı"na uğramaq həsrətində olan, amma heç cür bu "arzuları"na çata bilməyən ermənilər yenidən haray-həşirə başlayıblar:*

Yolumuzu bağlayıb, bizi soyqırımı edəcəklər!

Halbuki yolu bağlayan mülki etirazçılar yox, onların can-ciyərləri RSK-dır;

Hərbi maşınlardır;

Yolun ortasında saxlanılan KamAZ-lardır;

Əsgər konteynerləridir...

**Erməni şivənini eşidən kimi diasporun pul kisəsindən asılı olanlar dərhal narahat oldular!**

Dekabrın 13-də Fransa Respublikasının Avropa və Xarici İşlər Nazirliyinin, ABŞ Dövlət Departamentinin və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə sözçüləri "yolun bağlanmasının erməni əhalisi üçün humanitar nəticələrə gətirib çıxara biləcəyi"ndən "əndişə"lərini söylədilər.

Nə qədər "humanist və mərhəmətli" yanaşma...

**Otuzillik işğal dövründə Azərbaycan vətəndaşlarının doğma torpaqlara gedən yolunu erməni vandalları kəsəndə, ABŞ və Fransanın da daimi üzvü olduğu BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi onillərlə icra edilməyəndə, qaçqınlar və məcburi köçkünlər çadır şəhərciklərində soyuqda, ac-susuz qalanda ATƏT-in Minsk qrupunun üzvü olan bu dövlətlərdən nə ədalət gördük, nə qəbul etdikləri sənədlərin icrasını, nə də beynəlxalq hüquqa əməl olunmasını...**

*Gördüyümüz isə...*

*İndiki kimi ikili standart, ikili yanaşma olub!*

Azərbaycan Xarici İşlər Nazirliyi dərhal bəyanatla çıxış edən ölkələrin ağzından vurdu: "...Təbii sərvətlərin talanmasına və ekologiyaya dəyən zərərə diqqət yetirilməməsi, habelə üçtərəfli Bəyanatın 6-cı bəndinə zidd olaraq Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunmasına bu ölkələr tərəfindən laqeydlik və məsələlərə qərəzli yanaşma", "Laçın yolundan istifadə edilməklə Azərbaycan ərazilərində mülki əhaliyə qarşı törədilən mina terroruna əhəmiyyət verilməməsi" daha çox və ciddi narahatlıq doğurmalıdır!

❖ ❖ ❖

*Diriykən basdırılan ATƏT-in Minsk qrupunun digər üzvü olan Rusiyanın erməni parasından asılı olan telekanalları və "sözçüləri" də münasibətlərini həmişəki qaydada - bizə "xox" gəlməklə, "neft mədənlərimizi raket zərbələri ilə vurmaq" hədəsi ilə ifadə edirlər.*

* Heç elə bil öz dövlətlərinin bu məsələyə münasibətindən xəbərləri yoxdur!

* Heç elə bil Rusiya ilə Azərbaycan arasında yeni imzalanan Müttəfiqlik Münasibətləri Haqqında müqavilə barədə heç nə eşitməyiblər.

* Heç elə bil prezident V.Putinin 10 noyabr Bəyanatına qarant kimi imza atdığını bilmirlər.

**Əslində, xəbərləri də var, eşidiblər də, bilirlər də!**

**Sadəcə, nə dövlətlərinə, nə də prezidentlərinin imzalarına hörmət edirlər.**

Bu isə artıq bizim problemimiz deyil!

❖ ❖ ❖

Dinc etiraz aksiyasına qoşulanların sayı günbəgün deyil, saatbasaat artır.

**Şuşa-Laçın yoluna toplaşanlar təkcə etiraz və tələblərini səsləndirmirlər, həm də Azərbaycan xalqının milli birliyini, monolitliyini əyani şəkildə nümayiş etdirirlər.**

Tələblərinə əməl olunanadək dinc etiraz aksiyasını davam etdirəcəklərini bildirənlər arasında:

* İqtidar və müxalifət jurnalisti, bitərəf qələm sahibi yoxdur, hamı bir mövqedədir!

* QHT təmsilçiləri heç bir "cəbhə"yə bölünməyiblər, hamısı bir fikirdədirlər!

* Bütün ictimai fəallar, yaşından, cinsindən, sənətindən, çalışdığı sahədən asılı olmayaraq, qəlbinin hökmü ilə bura gələn hər bir kəs əsl azərbaycanlıdır!

* Azərbaycanın maraqlarını təmsil və müdafiə edən vətən övladıdır!

**44 günlük Vətən müharibəsində olduğu kimi, bu mövqedə də hamı bir yumruq kimi birləşib!**

**"Qardaş yumruğu" da bu yumruğun yanındadır.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə bu yumruqları birləşdirərək "dəmir yumruğ"a çevirir!**

Qələbə gətirən "dəmir yumruğ"a!

❖ ❖ ❖

Deyəsən, hələ xəmir çox su aparacaq!

Generalın gərdəkdən çıxmaq fikri yoxdur!

Dinc yolla mübarizəsini davam etdirən etirazçılar isə tələblərinə yenisini də əlavə etdilər:

**Şuşa-Laçın yolu ilə daşınan sərvətlərimizin, Ermənistandan və İrandan ərazimizə gətirilən minaların, silah-sursatın, bizdən icazəsiz gələn casus və təxribatçıların qarşısının alınması üçün Laçın yoluna Azərbaycan tərəfinin də nəzarətinə imkan yaradılmalıdır!**

*Haqlı və doğru tələbdir!*

*Nə qədər gec deyil, nəzərə alınmalı və icra olunmalıdır!*

Hələ üçtərəfli Bəyanatda Xankəndidəki erməni silahlı qüvvələrinin çıxarılmasını tələb edən bənd də var!

Sülh üçün ayrılan vaxt isə gözləmir!

**Bəxtiyar SADIQOV**

---



## Prezident İlham Əliyev Bəhreyn Kralını və xalqını təbrik etdi

→ 2

## "Siyasi partiyalar haqqında" qanun qəbul edilib

"Siyasi partiyalar haqqında" qanun layihəsinin məqsədi bu gün Azərbaycan cəmiyyətində mövcud olan siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi, onların cəmiyyətdə yerinin və rolunun müəyyən edilməsindən ibarətdir. Qanun layihəsində demokratik prinsiplərə əməl edildiyi, sənədin hərtərəfli müzakirəsinin həyata keçirildiyi diqqətə çatdırılıb.



→ 3

## Büdcəyə vergi daxilolmaları ilk dəfə 15 milyard manatı ötüb




Dekabrın 15-nə olan məlumata görə, dövlət büdcəsinə vergi daxilolmalarının həcmi ilk dəfə 15 milyard manatı keçib. "Qeyri və neft-qaz sektorundan daxilolmalar isə 7,9 milyard manata çatıb. Qeydə alınan bu rekord göstərici həyata keçirilən mütərəqqi iqtisadi islahatların, səmərəli vergi inzibatçılığı və əlverişli biznes mühitinin təmin edilməsinin, cəmiyyətdə vergi mədəniyyətinin yüksəlməsinin nəticəsidir.

→ 6

## Özümüz də, sözümüz də, məqsədimiz də bir

Türk dövlətləri coğrafiyasının iqtisadi dövriyyə potensialı təxminən 4,5 trilyon dollardan artıqdır. Bu isə artıq türk dövlətlərinin real gücə çevrilməsini təsdiq edir. Əslində, türk dövlətləri birliyinin yeni dünya gücünə çevrilə bilməsi heç kimin təəccübünə səbəb olan qeyri-adi fakt deyil. Bu, iqtisadi münasibətlərin qanunauyğun inkişafını təmin edən amildir.



→ 2

## Ərazilərimiz kimi sərvətlərimizin də sahibiyik



Ermənilər neçə gündür mahir gopçular kimi bu cür xəbərləri tirajlamaqla yaşayırlar. Düşünürlər ki, Hitlerin təbliğatındakı kimi, yorulmadan qulaqları tapdalayan yalan sonda həqiqətə çevrilir. Amma yanılırlar. Ən azından ona görə ki, hədəfimiz aydın, məqsədimiz qətidir - ərazilərimiz kimi sərvətimizin də sahibiyik və ona izanan əlləri kəsməkdə tərəddüd etməyəcəyik. Bu haqqı isə bizdən heç kəs ala bilməz.

→ 5

## Ekoaksiya birliyimizin möhkəmlənməsini göstərir

Etirazçılar Ermənistan və onun havadarlarının Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısını almağa çalışırlar. Onu da qeyd edək ki, ermənilər vətəndaşlarımızın dinc aksiyasına müxtəlif don geyindirməyə çalışır, hadisələri siyasi və humanitar böhran kimi təqdim edirlər. Lakin səsləndirilən bu fikirlər tamamilə əsassızdır.



→ 5

## Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı yetirirəm.

İnanıram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Bəhreyn xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində qeyd olunan Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 4-də İstanbul şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində qeyd olunan Fəaliyyət Planı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Fəaliyyət Planının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2022-ci il*

## Moldova Baş nazirinin müavini DOST mərkəzində olub

Ölkəmizə səfərə gəlmiş Moldova Respublikasının Baş nazirinin rəqəmsallaşma məsələləri üzrə müavini Yurie Tsurkanunun başçılıq etdiyi nümayəndə heyəti 1 saylı Bakı DOST Mərkəzində olub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyinin və DOST mərkəzlərinin dövlət sosial xidmətləri sisteminə gətirdiyi innovativ yeniliklər, DOST modelinin üstünlükləri barədə məlumat verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının sosial sahə üzrə xidmətlərin "bir pəncərə"dən, şəffaf, çevik, vətəndaş rahatlığı və məmnunluğu prinsipinə uyğun qurulmasına imkan yaratdığını bildirib.

Nümayəndə heyəti DOST mərkəzində xidmət bölmələri və xidmət prosesi, habelə vahid əlaqələndirmə mərkəzi ilə tanış olub. DOST konsepsiyasına və sosial sahədə elektron xidmətlərə dair təqdimatlar edilib.

Sonra S.Babayev Y.Tsurkanu ilə görüşündə Azərbaycanla Moldovanın dövlət başçılarının qarşılıqlı səyləri nəticəsində iki ölkə arasında əlaqələrin daim inkişaf etməkdə olduğunu vurğulayıb. Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad edilmiş ərazilərimizdə aparılan böyük quruculuq və yenidənqurma işləri barədə məlumat verib.

Son illər Azərbaycanda əmək, məşğulluq və sosial müdafiə sahələrində aparılan genişmiqyaslı islahatlar diqqətə çatdırılıb. Moldova ilə əlaqələrin əmək, məşğulluq və sosial müdafiə sahələrini də əhatə etdiyi, həmçinin nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu ilə Moldova Milli Sosial Sığorta Kassasının fəal əməkdaşlığı qeyd olunub.

Y.Tsurkanu Azərbaycanla bütün sahələrdə əlaqələrin genişlənməsində maraqlı olduqlarını və eyni zamanda sosial sahədə əməkdaşlığın inkişafına, bu sahədə habelə rəqəmsal xidmətlərin qurulması istiqamətində fəal təcrübə mübadilələrinə maraq göstərdiklərini qeyd edib.

## Baş nazir Əli Əsədov SOCAR-ın Gürcüstandakı nümayəndəliyinin inzibati binası ilə tanış olub




Tbilisiyə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 16-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Gürcüstandakı nümayəndəliyinin inzibati binası ilə tanış olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir və Azərbaycanın rəsmi nümayəndə heyətinə SOCAR-ın Gürcüstandakı nümayəndəliyinin fəaliyyəti barədə məlumat verilib.

## Azad edilmiş ərazilərimizdə 15 min hektar ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib

Azad edilmiş ərazilərimizdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində bu il ərzində 15620 hektaradək ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 29 min 113 hektardan çox ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 10185 ədəd piyada əleyhinə, 2580 ədəd tank əleyhinə mina və 10445 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Əsas səylərin azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldildiyi mina təmizlənmə işlərinə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamında olan qardaş Türkiyədən alınmış "MEMATT" (Mexaniki Mina Təmizləmə Təchizatı) texnikası da cəlb olunub.

Azad edilən ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

## Azərbaycan və Tacikistan prokurorluqları arasında əməkdaşlıq proqramı imzalanıb

Azərbaycan və Tacikistan prokurorluqları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi məqsədilə baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Tacikistan Respublikasının baş prokuroru Yusuf Raxmonun dəvəti ilə Düşənbə şəhərində işgüzar səfərdədir.



Baş Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, Tacikistanın Baş Prokurorluğunda keçirilmiş görüşdə nümayəndə heyətini salamlayan baş prokuror Yusuf Raxmon bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, dövlət başçılarının apardıqları uzaqgörən xarici siyasət nəticəsində ölkələrimiz arasında əlaqələrinin etibarlı əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq prinsipinə əsaslandığını vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb. Tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Görüş zamanı 2023-2024-cü illər ərzində prokurorluqlar arasında əməkdaşlıq proqramı imzalanıb.

Səfər çərçivəsində Tacikistanın Korrupsiyaya qarşı Mübarizə üzrə Dövlət Maliyyə Nəzarəti Agentliyinin direktoru Süleymon Sultonzode ilə ikitərəfli görüş keçirilib. Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiya ilə mübarizə sahəsində qəti siyasi iradəsi nəticəsində aparılmış islahatların əhəmiyyətini vurğulayaraq, ölkəmizdə bu sahədə görülmüş tədbirlər barədə geniş məlumat verib. Həmçinin qurumlararası əməkdaşlığın genişlənməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılması məqsədilə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında razılaşma imzalanıb.

Görüşlərdə ölkəmizin Tacikistandakı səfiri Əlimirzamin Əskərov iştirak edib.

Kamran Əliyev həmçinin Tacikistanda işgüzar səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müaciblə görüşüb və gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti Düşənbənin Dusti meydanındakı Tacikistanın milli həmrəyliyi və dirçəlişi xatirə kompleksində İsmoili Somoni abidəsini ziyarət edərək önünə əklil qoyub. Baş prokuror ölkəmizin Düşənbədəki səfirliyinə gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, əziz xatirəsini ehtiramla yad edib.

# Özümüz də, sözümüz də, məqsədimiz də bir

### Bu birlik türk dövlətlərinə yeni reallıqda yeni münasibətlər qurmağa imkan verir

Dünyanın siyasi müstəvisində baş verən hadisələr gərginləşdikcə dövlətlərarası münasibətlərin sərtləşməsi və ağırlaşan müharibələr nikbinliyə ümid yeri qoymur. Buna baxmayaraq, dünyanın qaynar nöqtələrindən biri olan Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün Azərbaycan Prezidenti İlham Əliyev gərgin və ardıcıl səylər göstərir.



Bu baxımdan dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin keçirdikləri Birinci Zirvə Görüşü xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev belə hesab edir ki, bu tədbir regional əməkdaşlığa, nəqliyyat, logistika, ticarət sahələrində əlaqələrin genişlənməsinə böyük töhfə verəcək. Hər üç ölkənin liderləri çıxışlarında daha dərin və geniş iqtisadi əlaqələrin yaradılmasında maraqlı olduqlarını vurğulayaraq ən zəruri iqtisadi perspektivlərin üfüqlərini müəyyənləşdirdilər. Prezident İlham Əliyev xalqlarımızın bir-birinə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlərlə sıx bağlandığını, Azərbaycanın Türkiyə və Türkmənistanla iqtisadi əlaqələrinin sürətlə inkişaf etdiyini və münasibətlərimizin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd etdi: "Tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatmışdır. Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən Azərbaycan iqtisadiyyatına isə 14 milyard dollara yaxın sərmayə yatırılmışdır. Bu il Türkmənistan ilə ticarət dövriyyəsi 5 dəfə artmışdır. Bu, rekord göstəricidir".

Dövlətimizin başçısının misal gətirdiyi rəqəmlər Azərbaycan, Türkiyə və Türkmənistan arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyini təsdiqləyir. Belə ki, üç ölkə arasında nəqliyyat-logistika sahəsində böyük uğurlar qazanılmış, nəqliyyat bağlantılarında əməkdaşlıq üçün yeni imkanlar açılmış, çoxsaylı layihələr icra edilmişdir. Ölkələrimizin bu sahəyə yönəltdiyi sərmayələr yeni və müasir infrastrukturun yaradılmasında vacib rol oynamışdır. Uzun illər müharibə şəraitində yaşayan, resurslarının çoxunu qələbəyə sərf edən Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısı olması, dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün vacib layihələri icra edərək önəmli tranzit ölkəsinə çevrilməsi heyrətamiz nəticədir. Bizim uğurlarımız həm Türkiyənin, həm Türkmənistanın, həm də bütün türk xalqlarının uğurudur.

Dövlətimizin başçısı Türkmənbaşı görüşündəki çıxışında həm də perspektivlərə toxundu: "Zəngəzur dəhlizinin açılması ilə fəal məşğuluq. Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu həcmin 25 milyon tona çatdırılması üçün vəsaitin ayrılması nəzərdə tutulur".

Həqiqətən, öyünüləsi faktlardır: bir il əvvəl Ələt Azad İqtisadi Zonasının təməli qoyulub. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu açılıb, indi bu layihəyə əlavə 100 milyon dollardan çox sərmayə qoyulacaq və onun ötürücülük qabiliyyəti beş dəfə artacaq. Xəzər dənizində 50 gəmidən ibarət ən böyük ticarət donanması bizə məxsusdur. Regionumuzda 18 yük təyyarəsindən ibarət ən böyük mülki hava yük donanması da bizdədir.

Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev Prezidentimizlə görüşündə vurğuladı ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsi və ərazilərimizin işğaldan azad edilməsi təkcə ölkəmiz üçün deyil, bütün türk dünyası üçün böyük önəm daşıyır.

2 il öncə 44 günlük Vətən müharibəsində qazandığımız qələbə həm də regionda yeni nəqliyyat-kommunikasiya layihələri üçün əlverişli imkan yaratmışdır. Üstəlik, yeni çağırışlar və təhdidlərin tükənməməsi səbəbindən iqtisadiyyatın əsas sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi gündəmə gəlmişdir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyidir.

Beləliklə, biz yeni dünya düzənində türk dövlətlərinin xüsusi çəkisinin israrla və sürətlə artmasını müşahidə edirik. Dövlətimizin başçısı dekabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edərkən bu qurumun beynəlxalq səviyyədə fəaliyyətinin əhəmiyyətli dərəcədə artmasının üzv və müşahidəçi dövlətlərin beynəlxalq nüfuzunun və iqtisadi potensialının yüksəlişinə xidmət etdiyini bildirmişdir.

Yeri gəlmişkən, qeyd edək ki, türk dövlətləri coğrafiyasının iqtisadi dövriyyə potensialı təxminən 4,5 trilyon dollardan artıqdır. Bu isə artıq türk dövlətlərinin real gücə çevrilməsini təsdiq edir. Əslində, türk dövlətləri birliyinin yeni dünya gücünə çevrilə bilməsi heç kimin təəccübünə səbəb olan qeyri-adi fakt deyil. Bu, iqtisadi münasibətlərin qanunauyğun inkişafını təmin edən amildir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Adaptiv strateji idarəetmə layihəsi başa çatdı

bp şirkəti "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - SOCAR, TPAO, LUKOİL, NİCO, MOL, "Equinor", SGC, İNPEX, "ExxonMobil", İTOCHU, "TotalEnergies", "Eni", "ONGCVidesh" adından Azərbaycana adaptiv strateji idarəetmə üzrə beynəlxalq təcrübənin ötürülməsini dəstəkləyən üçillik sosial sərmayə layihəsinin uğurla başa çatdığını elan edib.

Layihənin əsas məqsədi yerli idarəetmədə strateji dəyişikliklərə çevik reaksiya vermək, innovasiyalara və transformasiyalara uyğunlaşmaq bacarıqlarını formalaşdırmaqla bu sahədəki cari tələbatı qarşılamağa dəstək vermək idi. Layihə məhz yerli təşkilatların bu sahədə rastlaşdığı çətinlikləri aradan qaldırmağa kömək üçün nəzərdə tutulmuşdu.

Layihə beynəlxalq miqyasda tanınmış Adaptiv Strateji İdarəetmə Proqramı (ASEP) əsasında ADA Universitetində həyata keçirilib. Təlim proqramı Dyuk Universitetinin (ABŞ) Fuqua Biznes Məktəbinin nəzdində yerləşən və dünyada biznes idarəetmə sahəsinin tədrisində aparıcı təşkilatlardan olan "Duke Corporate Education" (Duke CE) tərəfindən hazırlanmış və sertifikatlaşdırılmış biznes təhsili üzrə kurrikuluma əsaslanıb. Duke CE bu proqramı ABŞ-nin insan resursları üzrə aparıcı konsultant şirkətlərindən biri olan və liderliyin inkişafı üzrə ixtisaslaşan "Korn Ferry" ilə tərəfdaşlıqda hazırlayıb və həyata keçirib.

Proqramı bitirdikdən sonra bütün uğurlu iştirakçılar Dyuk Universitetinin Fuqua Biznes Məktəbindən sertifikatlar alıblar. Proqramda ümumilikdə dövlət (28 faiz) və özəl (72 faiz) sektorlarını təmsil edən 123 rəhbər işçi iştirak edib. Layihənin dəyəri təxminən 1,5 milyon manat olub və buraya bp ilə tərəfdaşlarının iştirakçıların təhsil haqqı ödənişlərinə dəstəyi də daxildir.

Layihənin uğurla tamamlanması münasibətilə dünən ADA Universitetində tədbir keçirilib.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "İnanırıq ki, ASEP proqramının məzunları əldə etdikləri bacarıq və biliklərlə fəaliyyət göstərdikləri biznes mühitini daim qiymətləndirmək və mürəkkəb strateji dəyişikliklərə çevik reaksiya vermək üçün lazımi səriştələrə tam yiyələniblər. Bu sahədə yerli potensialın yaradılmasında verdikləri töhfəyə görə iki aparıcı universitetə - ADA Universitetinə və Dyuk Universitetinə təşəkkürümüzü bildiririk".

ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə bildirib ki, Adaptiv Strateji İdarəetmə Proqramı tərəfdaşlarla əməkdaşlığımızı daha da möhkəmləndirməklə yanaşı, eyni zamanda yüksəkixtisaslı mütəxəssislərin karyera inkişafını sürətləndirib: "Bu proqramı uğurla təşkil etdiyinə görə ADA Universitetinin İxtisasartırma proqramlarına təşəkkür edirik".

***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# "Siyasi partiyalar haqqında" qanun qəbul edilib





Dekabrın 16-da parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib. Əvvəlcə iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb.

### Parlamentarilərdən ekoaksiyaya dəstək

Komitə sədri Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Azay Quliyev, Əli Məsimli, Tural Gəncəliyev, Rəşad Mahmudov, Şahin İsmayılov, Məlahət İbrahimqızı son günlər ərzində Şuşa-Laçın yolunda Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının həyata keçirdiyi etiraz aksiyası ilə bağlı fikirlərini açıqlayıblar, aksiya iştirakçılarının mövqeyini dəstəklədiklərini bildiriblər. Millət vəkilləri ekoloqların bu ərazilərdə monitorinq keçirməsinə maneçilik törədilməsini pisləyərək qeyd ediblər ki, Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarına son qoyulmalıdır. Ermənistanın bu dinc aksiyanı təhrif olunmuş şəkildə beynəlxalq ictimaiyyətə çatdırdığını deyən deputatlar bu aksiyanı Azərbaycan xalqının erməni tərəfinin davam etdirdiyi təxribatlara, talançılığa və sülhməramlıların fəaliyyətinə narazılığının ifadəsi kimi dəyərləndiriblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova son iki gündə parlamentdə mühüm mövzularla bağlı dinləmələrin keçirildiyini diqqətə çatdırıb. O, dinləmələrdə deputatların, QHT nümayəndələrinin, ekspertlərin iştirak etdiyini bildirib və dinləmələr barədə məlumat vermək üçün müvafiq komitələrin sədrlərinə söz verib. Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova parlamentin spikeri Sahibə Qafarovaya bu cür dinləmələrin keçirilməsi üçün yaratdığı imkana və dəstəyə görə təşəkkürünü ifadə edib. O, rəhbərlik etdiyi komitənin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə "Qanunvericilikdə qadın sahibkarlığı: imkan və perspektivlər" mövzusunda keçirdiyi dinləmənin əhəmiyyətindən danışıb, tədbirdə qadın sahibkarların iştirak etdiyini deyib. Sonra çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dinləmələrin səmərəli keçdiyini söyləyib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev rəhbərlik etdiyi komitə ilə Elm və Təhsil Nazirliyinin "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirdiyi birgə ictimai dinləmə barədə məlumat verib. O, müəllimlərin hər zaman dövlətin diqqət mərkəzində olduğunu deyib. Qeyd edib ki, sertifikatlaşdırmanın məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olmaqdan ibarətdir.

Sonra parlamentin sədri Sahibə Qafarova gündəlikdə 25 məsələnin olduğunu diqqətə çatdırıb. Bildirib ki, birinci məsələ - "Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM iştirakçısı olan dövlətlərin konsulluq məsələlərində qarşılıqlı yardım göstərilməsi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə qanun layihəsidir. "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələblərinə əsasən, qanun layihəsi beynəlxalq sənədlə bağlı olduğuna görə bir oxunuşda baxılıb qəbul ediləcək.

Məsələ barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva məlumat verib. O bildirib ki konvensiya 2022-ci il sentyabrın 20-də Nyu York şəhərində imzalanıb. Sənəd 13 maddədən və 2 əlavədən ibarətdir. Konvensiyanın məqsədi iştirakçı dövlətlər arasında konsulluq sahəsində əməkdaşlığı gücləndirmək və öz vətəndaşlarının maraqları naminə üçüncü ölkənin ərazisində onların qanuni hüquq və maraqlarının müdafiəsi sistemini təkmilləşdirməkdir. Konvensiyanın müddəalarına əsasən, əməkdaşlıq vasitəsi ilə müxtəlif hallarda üçüncü dövlətlərin ərazisində və onların razılığı ilə tərəflərdən birinin bu dövlətlərdə diplomatik nümayəndəlik və konsulluğunun olmadığı halda, vətəndaşların hüquq və maraqlarının müdafiəsi üzrə onların bir-birinə qarşılıqlı yardım göstərməsi nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

### Siyasi partiyaların fəaliyyəti yeni qanunla tənzimlənəcək

Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 3 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

Sonra Milli Məclis Sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O bildirib ki, qanun layihəsinin məqsədi bu gün Azərbaycan cəmiyyətində mövcud olan siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi, onların cəmiyyətdə yerinin və rolunun müəyyən edilməsindən ibarətdir. Vitse-spiker qanun layihəsində demokratik prinsiplərə əməl edildiyini, sənədin hərtərəfli müzakirəsinin həyata keçirildiyini diqqətə çatdırıb.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı bildirib ki, ikinci oxunuş zamanı 16 deputat çıxış edib, bir neçə deputat isə yazılı şəkildə öz təkliflərini təqdim edib.

Birinci vitse-spiker təkliflərin bir hissəsinin qanunun Konstitusiyaya uyğunluğu ilə bağlı məsələlər olduğunu deyib. Habelə qanunun icrası ilə əlaqədar yarana biləcək çətinliklərlə bağlı məsələlərin qaldırıldığını, buna dair müzakirələrin aparıldığını və qanun layihəsinə bir sıra dəyişikliklərin edildiyini bildirib. O diqqətə çatdırıb ki, dəyişikliklərə əsasən, siyasi partiya orqanlarının anlayışı verilən 1.1.4-cü maddədə və 12 - 17-ci maddələrdə "icra orqanı" ifadəsi "qurultaylararası kollegial idarəetmə orqanı" ifadəsi ilə əvəz edilir. Habelə reyestrdə siyasi partiyalara ianə verən şəxslər və digər hallarda onların fərdi identifikasiya nömrəsinin tələb olunması ilə bağlı narahatçılığa dair məsələnin də araşdırıldığı və bununla əlaqədar olaraq qanunun 5.3, 20.10 və 23.2.7-ci maddələrindən bu tələbin çıxarıldığı bildirilib.

Komitə sədri Siyavuş Novruzov və deputatlar məsələ barədə fikirlərini səsləndiriblər. Sonra "Siyasi partiyalar haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib. Layihədə dayanma və ya durma qaydalarının pozulması ilə bağlı bütün növ inzibati xətalara görə məsuliyyətin elektron qaydada tərtib edilən qərarlar əsasında müəyyən edilməsi qaydası nəzərdə tutulur. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Deputat Kamal Cəfərov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) barədə də məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova nəzərə çatdırıb ki, gündəliyin 5-ci məsələsindən başlayaraq növbəti 11 məsələ ikinci oxunuşda olan qanun layihələridir.

### İki medal təsis olunur

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihəyə əsasən, adıçəkilən hər iki medal "ASAN xidmət"in yaradılmasının 10 illiyi münasibəti ilə təsis edilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra komitə Sədri Tahir Mirkişili növbəti iki məsələni - "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsinə təklif olunan uyğunlaşdırma xarakterli dəyişikliyə bu komitənin müsbət rəy verdiyini bildirib. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Gömrük tarifi haqqında" və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ ilə bağlı bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələri barədə məlumat verib. Mülki Prosessual Məcəlləyə təklif edilən dəyişikliklərə əsasən, dövlət, peşə, kommersiya sirrinin açılması, şəxsi və ailə həyatı sirrinin yayılması, yetkinlik yaşına çatmayan şəxslərin marağının gözlənilməsi, övladlığagötürmə, vərəsəlik və digər hallarda videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılması istisna edilir. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələrini təqdim edib. O, hər iki qanun layihəsinə dair təklif və rəyin daxil olmadığını söyləyib. Dəyişikliklərə əsasən İnzibati Xətalar Məcəlləsinin 393-1.4-cü maddəsinə "mülkiyyətçisi" sözündən sonra "o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçisi" sözləri əlavə edilir. Habelə 393-1.6-cı maddəyə "mülkiyyətçilərinə" sözündən sonra "o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçilərinə" sözləri əlavə olunur.

Mənzil Məcəlləsinə isə 29.5-ci maddənin əlavə edilməsi təklif olunur. Əlavəyə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsi kirayəçinin istifadəsinə verildiyi tarixdən kirayə hüquq münasibətlərinə xitam verilənədək bu məcəllənin 38-ci, 43-47-ci və 119-145-ci maddələri üzrə çoxmənzilli binanın sahə mülkiyyətçisinə məxsus hüquq və vəzifələr həmin kirayəçiyə verilir. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin qalan növbəti 10 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Bu beş məsələyə - 16-cı məsələ olan "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" (birinci oxunuş), 17-ci məsələ olan "Hədəfli maliyyə sanksiyaları haqqında" (birinci oxunuş), 18-ci məsələ olan Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), 19-cu məsələ olan Mülki Prosessual və Cinayət-Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və 20-ci məsələ olan Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrinə Milli Məclisin üç komitəsində baxılıb və qərara alınıb ki, həmin komitələrin layihələrlə bağlı təqdimatları və sənədlərin müzakirələri birgə keçirilsin.

"Hədəfli maliyyə sanksiyaları haqqında" qanun layihəsi (birinci oxunuş) isə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının (BMT TŞ) aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının (HMS) tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov 16-cı, 17-ci, 18-ci və 20-ci məsələlərə dair komitənin müsbət rəyini təqdim edib. Qnun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Parlamentin sədri gündəliyin 21-ci məsələsi olan Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edilib.

Qanun layihəsi barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verərək bildirib ki, "Qida təhlükəsizliyi haqqında" qanunun 2023-cü il yanvarın 1-də qüvvəyə minməsi ilə "Yeyinti məhsulları haqqında" qanun qüvvədən düşəcək. Ona görə də təqdim olunan layihədə "Qida təhlükəsizliyi haqqında" qanunda qəbul olunan müddəaların və yeniliklərin qanunvericilik aktlarında təsbit edilməsi nəzərdə tutulub. Digər ən böyük dəyişiklik "Yeyinti məhsulları haqqında" qanunda ərzaq təhlükəsizliyi ilə bağlı olan müddəaların "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna əlavə edilməsidir. Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli rəhbərlik etdiyi Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev də rəhbərlik etdiyi komitənin layihə ilə bağlı müsbət rəylərini səsləndirəndən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub. Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsi tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi və istehlakçıların elektrik şəbəkələrinə qoşulmasının asanlaşdırılması məqsədilə hazırlanıb. Qeyd edilib ki, tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı yeni maddənin əlavə olunması nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin 23-cü və 24-cü məsələləri prezidentin bir məktubu ilə parlamentə daxil olan qanun layihələridir və mahiyyətcə bir-birinə yaxındırlar. Spiker qanun layihələri ilə bağlı məlumat vermək üçün sözü İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə təqdim edib.

Komitə sədri bildirib ki, Gömrük Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri sahibkarlar üçün həssas bir məsələ olan gömrük dəyərinin müəyyən edilməsi üçün yeni yanaşmaları özündə ehtiva edir. Sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

### Əmək pensiyaları ilə bağlı dəyişiklik

Gündəliyin sonuncu məsələsi olan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verərək deyib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, 2018-ci ildə "Əmək pensiyaları haqqında" qanuna "Əmək pensiyalarının təyin edilməsi, hesablanması və yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi qaydası"nın müəyyən edilməsini nəzərdə tutan yeni maddə əlavə edilib. Layihədə qanunvericilikdə uyğunsuzluğun aradan qaldırılması məqsədilə "sağlamlıq imkanları məhdud" sözlərinin "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilməsi təklif olunub.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına son qoyulmalıdır

Vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərimizin qeyri-qanuni istismarına və ekologiyaya mənfi təsirlərinə qarşı Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyasına səbəb olan vəziyyət hələ də aradan qaldırılmayıb.

Rusiya sülhməramlıları çıxış nöqtəsini Laçın yolunu bağlamaqda görüblər. Əslində, bütün bu baş verənlər onların üzərinə düşən missiyanı tam yerinə yetirə bilmədiklərini, Azərbaycan ərazisində yerləşən erməni terrorçu qruplaşmaların təxribatçı əməllərinin qarşısının alınmamasını göstərir. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələri sadəcə talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının dayandırılmasını tələb edir.

Hazırda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindəki faydalı qazıntı yataqlarının qeyri-qanuni şəkildə istismar olunması, bu zaman ekoloji normalara əməl edilməməsi danılmaz faktdır. Dövlət qurumlarımız bununla bağlı bir neçə dəfə sülhməramlı kontingentin komandanlığına müraciət edib. Bütün faydalı qazıntı yataqları, o cümlədən "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması məsələləri üzrə işçi qrup yaradılıb. Lakin bunlarla bağlı danışıqlar nəticəsində əldə olunmuş razılığa baxmayaraq, monitorinqin keçirilməsinə maneçilik törədilib.

Əldə edilən məlumatlara görə, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında vəziyyət acınacaqlıdır. Bu yataqlarda Azərbaycana məxsus təbii sərvətlər talanır. Son dövrlər bu istiqamətdə proseslər daha da aktivləşib, belə münasibət ekoloji vəziyyətə daha ciddi mənfi təsir göstərir. Hələ dekabrın 3-dən Azərbaycan mütəxəssislərinin əraziyə səfərinin və monitorinqinin üsullarını müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının nümayəndələri və Rusiya sülhməramlı kontingenti arasında danışıqlar aparılıb. Əldə olunmuş razılığa uyğun olaraq, 10 dekabr tarixində faydalı qazıntıların qanunsuz istismar edildiyi bu iki əraziyə Azərbaycan nümayəndələrinin getmək cəhdinə yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası mane olub. Bu baxımdan Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır.







Bütün bu baş verənlər ölkəmizin tarixi qələbəsindən sonra üç ölkə liderinin - Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri arasında imzalanmış 2020-ci il 10 noyabr tarixli Bəyanatın müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsini nümayiş etdirir. Bəyanatın 4-cü bəndinə zidd olaraq erməni silahlı qüvvələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb, 6-cı bəndinə zidd olaraq Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunur, 9-cu bəndinə zidd olaraq bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilir. Ona görə də Azərbaycan dövlətinə məxsus ərazilərdə ekoloji monitorinqin həyata keçirilməsinə imkan verilməməsi, buna mane olan pozucu ünsürlərə qarşı heç bir tədbir görülməməsi vəziyyətin bu məcraya gəlib çıxmasına səbəb olmuşdur.

Sülh prosesini pozaraq vaxt uzatmağa çalışan, bəlkə nə vaxtsa dəyişə biləcək geosiyasi vəziyyətin yetişməsinə ümid edən və öz vətəndaşlarını da yeni xülyalarla aldadan Ermənistan və bu ölkənin havadarları yenə xarici ölkələrdə haray-həşir salmağa başlayıblar. Laçın yolunda keçirilən aksiya, yolun bağlanması Qarabağda yaşayan ermənilərin hüquqlarının pozulması, onların, guya, təhlükə ilə üzləşməsi kimi təqdim olunur. Bütün bunlar ermənilərin saxtakarlıq xəstəliyindən hələ də sağalmadıqlarını və sağalmaq belə istəmədiklərini göstərir. Halbuki Azərbaycanın tarixi zəfəri nəticəsində bütün saxta mifləri puç olandan, iç üzləri göründəndən sonra işğalçı qonşularımızın bu mərəzdən sağalacaqlarına ümidlər böyük idi.

Laçın yolunda keçirilən aksiya ilə bağlı həqiqət gün kimi ortadadır. Yolu azərbaycanlı etirazçılar deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti bağlayıb. Aksiyada iştirak edən ictimai fəallar, ölkəmizin vətəndaş cəmiyyəti təmsilçiləri illərdir ki, talan edilən təbii sərvətlərimizin qanunsuz daşınmasının qarşısını almağa çalışırlar. Mülki təyinatlı digər nəqliyyat vasitələrinin hərəkəti məsələlərinə onlar müdaxilə etmirlər. Bu aksiyanın tələbləri aydın və qanunidir. Azərbaycana aid faydalı qazıntı yataqlarına dövlət nümayəndələrimizin maneəsiz girişinin təmin edilməsi bizim haqqımızdır. Belə səfərə müxtəlif əsaslarla maneçilik törədilməsi, yaxud hər hansı şərt irəli sürülməsi qəbuledilməzdir.

Qarabağda yaşayan və Azərbaycan vətəndaşı olan ermənilər də bütün digər vətəndaşlarımız kimi dövlətin yaratdığı imkanlardan faydalanmaq hüququna, eləcə də dövlət qarşısında müəyyən öhdəliklərə, o cümlədən törətdikləri cinayət əməllərinə görə məsuliyyət daşıyırlar. Azərbaycan dövləti qanunlarımıza, dövlətçilik dəyərlərimizə hörmətlə yanaşan, sivil cəmiyyətin bir hissəsinə çevrilmək istəyən bütün erməni əsilli vətəndaşlarımızın təhlükəsizliyinə təminat verir. Sadəcə olaraq onlar illərlə beyinlərini zəhərləmiş xülyalardan ayılmalı, uydurma miflərdən əl çəkməli, Qarabağ məsələsini yaşadıqları ölkənin siyasi dairələri ilə alver predmetinə, qazanc mənbəyinə çevrilmiş erməni lobbisinin, Ermənistan siyasilərinin yalanlarına inanmamalıdırlar. Onlar gələcəyə baxmağı bacarmalıdırlar. Əgər özlərində güc, obyektivlik tapıb gələcəyə nəzər salmağı bacarsalar, görəcəklər ki, xoşbəxtlik, rifah, onların ləyaqətli həyatı, vətəndaş hüquqlarına hörmət məhz Azərbaycandadır.

Bu gün hər kəs bölgədə vəziyyəti kəskinləşdirməyə, kin-küdurəti, ədavəti gücləndirməyə deyil, həqiqi sülhə çalışmalıdır. Ermənistan terrorçularının Laçın yolu ilə daşıdıqları silah-sursatın Qarabağa keçirilməsinə göz yummaqla bu torpaqları yeni münaqişə ocağına çevirmək olmaz. Üzə çıxarılan faktlar, tapılan mina sahələri erməni terrorçularının Azərbaycan ərazilərinə 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalar basdırdıqlarını göstərir. Bu minalar hansı yollarla gətirilir? Ermənistan tərəfindən Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısı alınmalıdır. Azərbaycanın iradlarına baxmayaraq sülhməramlıların komandanlığının bu faktlarla bağlı hələ də doğru-düzgün izahı yoxdur.

Kriminal iş adamı Ruben Vardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsi və ətraf mühitə ciddi ziyan vurması ilə bağlı fəaliyyətinin qarşısı hökmən alınmalıdır. Bu cinayətdir və o şəxs hüquqi məsuliyyətə cəlb olunmalıdır. Belə kriminal insanların cinayət əməlləri, Ermənistanın ekoloji terror siyasəti nəticəsində Azərbaycan ərazisindən keçən Araz çayına axan Oxçuçayda suyun tərkibindəki ağır metalların miqdarının dəfələrlə normadan artıq olduğu aşkar edilib. Digər tərəfdən mənfur qonşu ölkə öz qeyri-qanuni iqtisadi fəaliyyəti ilə beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozur. Bu cür cinayətlər Ermənistan Respublikası üçün hüquqi məsuliyyət yaradır. Əlvan metalların qeyri-qanuni hasilatını aparan şirkətlərə qarşı Azərbaycan hökuməti tərəfindən hüquqi tədbirlər təbii ki, görülməlidir və görüləcək də.

Bundan başqa, sülhməramlıların hesabatlarında bir çox yaşayış məntəqələrimizin rəsmi adları göstərilmir və uydurma erməni toponimlərindən istifadə olunur. Son dövrlərdə Ermənistan silahlı birləşmələri tərəfindən müxtəlif mövqelərdən atəşkəsin pozulması halları da kifayət qədər artıb.

Təbii sərvətlərimizin qeyri-qanuni istismarı dayandırılmalı və bütün bu fəaliyyət Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir. Etiraz aksiyası Azərbaycan ictimaiyyətinin bütün bunlarla bağlı haqlı narazılığının göstəricisidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## *İsrail Təhlükəsizlik Akademiyası:*
## "Rusiyalı sülhməramlıların qanunsuz hərəkətləri erməniməramlılıq və özbaşınalıqdır"

Azərbaycanın işğaldan azad edilən ərazilərində yerləşən Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərinə Azərbaycan ekoloqlarının, televiziya jurnalistlərinin, ictimaiyyət nümayəndələrinin və həmçinin qeyri-hökumət təşkilatları təmsilçilərinin buraxılmaması qanunsuz hərəkətdir və bunu özbaşınalıq olaraq xarakterizə edirik. Rusiya sülhməranlı kontingentinin müvəqqəti məskunlaşdığı ərazilərdə qanunsuz erməni hərbi birləşmələrinin və erməni separatçılarının ekoloji terror törətməsi, Azərbaycan ərazilərindəki təbii sərvətləri talayaraq istismar etməsi növbəti hərbi cinayət halıdır. Ermənistan hərbi birləşmələrinin ekoloji terror törətməsi faunanı və atmosferi məhv etməkdir. Dünya ictimaiyyəti və aidiyyəti beynəlxalq təşkilatlar məsələyə biganə qalmamalı, aidiyyəti təşkilatlar bölgəyə səfər edərək məsələni araşdırmalıdır. Ekologiyanı çirkləndirmək cinayətdir. Qarabağdakı qanunsuz erməni separatçı qüvvələri, İran rejiminə bağlı olan şirkətlər və şəxslərin özbaşına olaraq mütəmadi olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan Azərbaycan ərazilərinə gələrək bu ərazilərdəki Azərbaycana məxsus yeraltı və yerüstü təbii sərvəti talan etməsi ilə Azərbaycan iqtisadiyyatına ağır maddi zərər dəyib. İran rejiminə bağlı şirkətlərin SEPAH və ETTEELAAT-ın Qarabağdakı erməni separatçılarının olduğu və rus sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdəki yeraltı və yerüstü bütün təbii sərvətləri talayaraq terrora, silah-sursata və nüvə proqramını genişləndirməyə sərf edir. Son zamanlar Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərə edilən qanunsuz səyahətlər və qanunsuz özbaşına keçidlər rus sülhməramlılarının qanunsuz fəaliyyətindən və özbaşınalığından xəbər verir. Üstəlik, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının bölgədə yoxlama və təftiş aparmasına, azərbaycanlı jurnalistlərin öz dədə-baba torpaqlarında çəkilişlər etməsinə və sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərə gələn azərbaycanlıların ərazilərə daxil olmasına cidd-cəhdlə mane olmaq və öz nəzarətlərində olan yerlərə buraxmamaq artıq özbaşınalığın ən kobud halıdır. Belə sülhməramlı missiyası ola bilməz. Hadisələrdən açıq görünür ki, rus sülhməramlılarının əməlləri rəsmən Azərbaycan ərazilərinin növbəti dəfə qəsb olunması faktıdır. Rusiya sülhməramlı kontingentinin fəaliyyəti, sadəcə, ərazinin təhlükəsizliyini təmin etməli olduğu halda bunun əksini etməkdədir.

İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Respublikasındakı nümayəndəliyindən bildiriblər ki, beynəlxalq qanunlara görə sülhməramlı statusunu yalnız BMT verir. Heç bir ölkə heç bir zaman özbaşına sülhməramlı statusu daşıya bilməz. Bunun üçün həmin ölkənin BMT-dən mandatı olmalıdır. Yalnız BMT TŞ sülhməramlı olacaq ölkə və ölkələrə sülhməramlı mandatı təqdim edir. Eyni zamanda sülhməramlı missiyasında bir ölkə yox, bir neçə ölkə iştirak edir. BMT tərəfindən mandat verilərək bir neçə ölkənin hərbi qulluqçusu sülhməramlı qismində BMT bayrağı altında bölgəyə yerləşdirilir və regionda sülhün qorunmasına xidmət edir. Beləcə, bir neçə ölkə sülhməramlı mandatı ilə BMT bayrağı altında birgə fəaliyyət göstərir. Sülhməramlının fəaliyyəti və missiyası, sadəcə, ərazinin təhlükəsizliyini təmin etmək, hər hansı təxribat, pozuculuq və terror hadisələrinin qarşısını almaq, ərazidə sabitliyi qorumaq, insanların və mülki sakinlərin rahat və maneəsiz gediş-gəlişini təmin etməkdir.

Niyyəti sülh olmayan rus sülhməramlılarının isə BMT-dən heç bir sülhməramlı mandatı yoxdur. Yəni Rusiyanın sülhməramlı missiyası beynəlxalq qanunlarla və BMT Nizamnaməsi ilə tənzimlənmir və heç bir BMT mandatına sahib deyil. Rusiyanın Qarabağdakı sülhməramlı missiyası BMT və beynəlxalq ictimaiyyət tərəfindən tanınmır. Görünən odur ki, hazırda Rusiyanın Qarabağdakı fəaliyyəti yuxarıda qeyd olunan sülhməramlılıq anlayışının və prinsiplərinin əksinə olaraq sülhməramlılıq yox, ermənilərə dəstək olmaq, Azərbaycan ərazilərindəki təbii sərvətləri talamaq, İran və Ermənistana sözügedən bölgədə şərait yaratmaq, erməni maraqlarını müdafiə etməkdir. Azərbaycan dövlət orqanlarının fəaliyyətinə, mətbuatın çəkiliş aparmasına, ictimaiyyət nümayəndələrinin hərəkətinə cidd-cəhdlə mane olmaq Azərbaycan torpaqlarınıı qəsb etmək, mənimsəmək anlamındadır. İran və bir çox yerdən sülhməramlıların yerləşdiyi ərazilərə özbaşına və gizlin səfərlər edilməsi Azərbaycana məxsus yeraltı və yerüstü sərvətlərin İrana daşınması və üstəlik, buna sülhməramlıların şərait yaratması azərbaycanlıları və xüsusən media nümayəndələrini isə əraziyə buraxmamaq özbaşınalığın ən üst həddidir.

Azərbaycanın qeyri-hökumət təşkilatları və media mənsublarının Qarabağda aksiya keçirməsi haqq-ədalətin bərpa edilməsinə xidmət edir. Azərbaycan qeyri-hökumət təşkilatları və media nümayəndələrinin Laçın-Xankəndi magistral dəhlizini bağlaması, aksiyanın daha da genişlənməsi doğru və haqlı addımdır. Azərbaycan haqlı tərəfdir, işğala və əraziləri talana, özbaşınalığa və ərazisindəki təbii sərvətləri istismara məruz qalan tərəfdir. Beynəlxal hüquq Azərbaycanın tərəfindədir. Qanunsuz erməni birləşmələri və erməni separatçıları Azərbaycan torpaqlarını tərk etməlidir. Ermənistan tərəfi ekoloji terroru və Azərbaycan ərazilərini gizli talamağı dayandırmalıdır. Açıq-aşkar görünür ki, rus sülhməramlı qüvvələrinin dəstəyi ilə hazırda yerləşdikləri ərazilərdə talançılıq və istismarçılıq fəaliyyəti ilə məşğuldurlar. Qanunsuz erməni qüvvələri Azərbaycan ərazilərindəki yeraltı və yerüstü təbii sərvətlərin istismar edilərək talanması işinə İranı və SEPAH-ı da cəlb edib. Rusiya sülhməramlılarının isə buna şərait yaratması beynəlxalq hüququ pozmaq, özbaşınalıq və qəsbkarlıqdır. Azərbaycana məxsus yeraltı və yürüstü təbii sərvətlərin xüsusən qızıl-gümüş, digər qiymətli metalların və qiymətli təbii sərvətlərin talan edilərək gizli şəkildə məhz İrana daşınması, bu marşrut xətti ilə İran rejiminin kirli mənfur siyasətini icra edən SEPAH və ETTEELAAT tərəfindən gizli şəkildə narkotik daşınması beynəlxalq miqyaslı cinayətdir. Rus sülhməramlıları buna şərait yaratdıqları üçün ərazini qapalı rejimdə saxlamağa çalışırlar. Bu səbəbdən sülhməramlıların müvəqqəti yerləşdikləri ərazilərə azərbaycanlıların daxil olmasına maneçilik törədilir.

Bütün bu səbəblərə görə Xankəndi-Şuşa istiqamətində Azərbaycan qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinin aksiya keçirməsi zəruri və lazımlı addımdır.

Biz aksiyanın keçirilməsinə, aksiyaya gələn hər kəsə öz dəstəyimizi ifadə edirik. Azərbaycanın haqlı mövqeyini beynəlxalq ictimaiyyət və BMT tərəfindən tanınan ərazi bütövlüyünü, suverenliyini dəstəkləyirik və bütün təhlükə və təhdidlərə, təxribat və siyasi hücumlara qarşı hər zaman Azərbaycan dövlətinin və xalqının yanında olduğumuzu bəyan edirik.

***"Azərbaycan"***



# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Ekoaksiya birliyimizin möhkəmlənməsini göstərir





Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasındakı "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qeyri-qanuni istismarı əleyhinə ekofəalların etiraz aksiyası neçə gündür ki, davam edir. Şuşa-Laçın yolunda "Ekoterrora son!", "Təbiəti qoruyaq!", "Mina terroruna son!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" kimi şüarlarla müşayiət edilən aksiya Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir. Dinc formada keçirilən aksiya iştirakçıları qanunsuz istismarın qarşısının alınması üçün Azərbaycan mütəxəssislərinin ərazidə monitorinq keçirmələrinə şərait yaradılmasını tələb edirlər. Haqlı olaraq Azərbaycan xalqı rusiyalı milyarder Ruben Vardanyanın təbii sərvətlərimizi talan etməsinə və ətraf mühiti çirkləndirməsinə göz yuma bilməz.

Ona görə də etirazçılar Ermənistan və onun havadarlarının Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısını almağa çalışırlar. Onu da qeyd edək ki, ermənilər vətəndaşlarımızın dinc aksiyasına müxtəlif don geyindirməyə çalışır, hadisələri siyasi və humanitar böhran kimi təqdim edirlər. Lakin səsləndirilən bu fikirlər tamamilə əsassızdır. Aksiyanın ərazidə yaşayan dinc ermənilərə heç bir aidiyyəti yoxdur, ekofəallar dinc erməni əhalisinə məxsus mülki avtomobillərin, təcili yardım maşınlarının həmin yoldan keçidinə şərait yaradırlar.

### Fəalların tələbləri təmin olunmalı, terrora son verilməlidir

Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov qeyd edib ki, separatçı ermənilərin və təcavüzkar Ermənistanın ərazilərimizdəki ekoloji terrorunun əleyhinə Laçın-Şuşa yolunda keçirilən etiraz aksiyasında iştirakçıların əzmkarlığı qürurvericidir: "Biz fədakar ekofəalların, könüllülərin bu dirənişini, dik duruşunu, mübarizliyini alqışlayır və onların haqlı tələblərini dəstəkləyirik. Aksiyada iştirak edənlərin hər biri dinc insanlardır, bizim mülki vətəndaşlarımızdır. Erməni mediasının, Rusiya və Fransa KİV-in ekoloqlarımızın təşkil etdikləri bu aksiya barədə əsassız iddialarla çıxış etməsinə qətiyyən əhəmiyyət verməməliyik. Aksiyada iştirak edənlər təpədən-dırnağa kimi silahlanmış, hətta ağır zirehlli hərbi texnikasını da əraziyə gətirib yolu bağlamış Rusiya sülhməramlılarının qarşısına əliyalın, silahsız və aqressiyasız çıxıblar. Bu, eyni zamanda kimin kim olduğunu açıq-aydın göstərir. Ekofəallar heç kimi hədələmir, nə sülhməramlılara, nə də yolu keçmək istəyən dinc ermənilərə qarşı hər hansı bir kobudluğa və qanun pozuntusuna yol vermirlər. Onlar sadəcə dinc şüarlar səsləndirir, Rusiya sülhməramlılarının komandanı general Andrey Volkovun əraziyə gəlməsini və onların tələblərini dinləməsini istəyirlər. Tələblər də kifayət qədər aydın, adekvat və qanuni tələblərdir".

Partiya sədri əlavə edib ki, aksiya iştirakçılarını hər hansı bir insidentə yol verməkdə ittiham etmək mümkün deyil: "Ərazidəki sülhməramlıların özləri də şahiddirlər ki, aksiya iştirakçıları tələblərini, şüarlarını tam sivil qaydada irəli sürürlər. "Ekoloji terrora yox deyirik!" kimi şüarların səsləndirilməsi sülhməramlılara qarşı deyil, separatçıların faydalı qazıntı yataqlarımızı talaması və ərazilərimizi ekoloji çirklənməyə məruz qoymalarına qarşı yönəlib. Təəssüf ki, sülhməramlılar aksiyaçıların tələblərinin yerinə yetirilməsinə tələsmir, prosesi qəsdən uzatmağa çalışırlar. Bu isə onların laqeydliyinin göstəricisidir".

Ə.Hüseynov deyib ki, müşahidələr Rusiya sülhməramlılarının öz üzərlərinə düşən missiyanı həyata keçirmək, Ermənistan dövlətinin və separatçıların təbii sərvətlərimizi talamasına son qoymaq, 10 noyabr razılaşmasının digər şərtlərinin yerinə yetirilməsini təmin etmək istəmədiklərini deməyə əsas verir: "Görünən budur ki, onlar aksiya iştirakçılarının haqlı tələblərinə cavab vermək əvəzinə, süni gərginlik yaradırlar. Lakin sülhməramlıların missiyası gərginlik yox, sülh və sabitlik yaratmaqdır. Rusiya sülhməramlılarının nümunəsində isə deyəsən hər şey tərsinədir, onlar bizim xoş mərama və haqlı tələblərə söykənən aksiyamızın dinc şəkildə bitməsində və qısamüddətli olmasında maraqlı deyillər".

Müsahibimiz bildirib ki, Milli Həmrəylik Partiyası olaraq bu aksiyanı dəstəkləyir və yüksək qiymətləndirirlər: "Bu aksiya çox şeyi artıq dəyişib və yeni reallıqlar yaradıb. Xankəndidəki separatçı rejimin tör-töküntüləri və hazırda onlara "sponsor"luq edən Rusiyanın emissarı - avantürist milyarder Ruben Vardanyan başa düşüb ki, 10 noyabr üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməmək və rəsmi Bakının iradəsinin ziddinə fəaliyyət göstərmək onların sonunu gətirəcək. Onlar heç nəyin əvvəlki kimi olmayacağını dərk etməyə başlayıblar. Elə mülki ermənilər də görürlər ki, ya ərazilərimizi tərk etməlidirlər, ya da reallıqla barışıb Azərbaycan qanunlarına tabe olmalı, cəmiyyətimizə reinteqrasiya yolunu tutmalıdırlar. Onsuz da bizim mülki ermənilərlə işimiz yoxdur, çünki onlara da öz vətəndaşlarımız kimi yanaşırıq".

Partiya sədrinin sözlərinə görə, aksiyanın yaratdığı reallıqlardan biri də sülhməramlıların ermənipərəstlik erasına son verilməsidir: O qeyd edib ki, sülhməramlı kontingent separatçıları himayə etməkdən əl çəkib Prezident Vladimir Putinin də imzaladığı 10 noyabr üçtərəfli Bəyanatının şərtlərini obyektiv və ədalətlli şəkildə yerinə yetirməli və Azərbaycanın haqlı narazılığına səbəb olan davranışlara yol verməməlidirlər. Əks halda, missiyaları başa çatmamış öz ölkələrinə geri qayıtmalıdırlar.

"General Volkov kimi "işbaz" haqqında xüsusi danışmaq istəyirəm. Altı gündür ki, etirazçılarımızın qarşısına çıxmayan, onların tələblərini dinləmək istəməyən general Volkov bəlkə də qaçıb aradan çıxıb. Qaçmayıbsa da, geri çağırılmalı və yeni komandanla əvəz olunmalıdır. Biz Ruben Vardanyan kimi soyğunçu, dələduz erməni milyarderinin "oyuncağ"ına çevrilmiş generalın sülhməramlılara rəhbərlik etməsini istəmirik. Proseslərə erməni "eynəy"i ilə deyil, obyektiv və qərəzsiz şəkildə yanaşan bəzi rusiyalı ekspertlər də hiss edirlər ki, Moskvanın ermənilərin rəğbətini qazanmaq siyasəti artıq əks-effekt verir. Kreml öz prioritetlərini yenidən nəzərdən keçirməlidir", - deyə partiya sədri vurğulayıb.

### Aksiya bölgədə yeni reallıqlar formalaşdırıb

Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bildirib ki, bu aksiyaya dırnaqarası yanaşmaq olmaz, çünki bu, bizim ərazi bütövlüyümüzün təminatı ilə bağlı kompleks işlərimizin tərkib hissəsidir: "Elə ona görə də bu gün bütün Azərbaycan xalqı ekologiyamızın müdafiəsinə qalxıb. İlkin mərhələdə, aksiya, əsasən, ekoloqların iştirakı ilə başlansa da, sonradan cəmiyyətin ayrı-ayrı üzvləri də buna dəstək verdilər. Vətəndaşlarımız Azərbaycan qondarma rejimin yerləşdiyi ərazilərdə təbiətə ziyan vurulmasını, ekoloji terrorun törədilməsini qəbul edə bilməz. Biz ölkəmizin var-dövlətinin başqa yerlərə daşınması ilə heç cür razılaşa bilmərik. Ona görə də aksiya iştirakçıları tələblərində tamamilə haqlıdırlar".

Partiya sədri deyib ki, Azərbaycan ictimaiyyəti təhdidlərdən qorxmur və mübarizəni sona qədər əzmkarlıqla davam etdirir: "Rus sülhməramlıları isə öz missiyalarına uyğun olmayan işlərlə məşğul olur, suveren ərazilərimizə azərbaycanlılardan başqa, demək olar ki, hər kəsi buraxırlar. Eyni zamanda sülhməramlı kontingentə arxalanan erməni terrorçuları bu yolla silah-sursat da daşıyırlar. Belə olan halda, aksiya iştirakçılarının dönməz mübarizəsi reallıqdır. Biz dünyanın diqqətini bu aksiya ilə Qarabağa yenidən yönəldə bilmişik. Fərqli mövqelərin, ermənipərəst yanaşmaların mövcud olmasına baxmayaraq, aksiya bölgədə yeni reallıqlar formalaşdırıb. Həmin ərazilərdə ölkəmizin suveren hüquqları təmin edilməli, Rusiya və Ermənistan üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməlidirlər. Ruben Vardanyanla bağlı isə xüsusi tədbir görülməlidir, çünki ekoloji terrora rəvac verən əsas fiqurlardan biri məhz odur. Biz də siyasi partiya olaraq, ekoaksiyanı dəstəkləyir, bu mübarizəni yüksək qiymətləndiririk".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Ərazilərimiz kimi sərvətlərimizin də sahibiyik

### Bu haqqı bizdən heç kəs ala bilməz

İctimai fəallarımız bir neçə gündür ki, milli sərvətlərimizin talanmasına etirazlarını bildirir və monitorinq qrupunun fəaliyyətinin təmin olunmasını tələb edirlər. Erməni təbliğatçıları isə hay-küy qaldırır ki, sülhməramlıların nəzarəti altında olan ərazilərdə ermənilər humanitar fəlakətə məruz qalıblar. Bəs həqiqətdə Laçın yolunda nə baş verir və doğrudandamı yol bağlıdır?



Laçın yolunun Şuşanın yanından keçən hissəsinə toplaşan çoxsaylı Azərbaycan vətəndaşlarının və ictimai-siyasi təşkilatların nümayəndələrinin əsas tələbi sülhməramlıların nəzarəti altındakı ərazilərdə mədənlərin qanunsuz istismarının dayandırılması, bu talan nəticəsində yaranan ekoloji böhranın səbəblərinin və ölçülərinin aydınlaşdırılıb üzə çıxarılmasıdır. Dinc nümayişçilərimiz bu məqsədlə xüsusi motorinqin keçirilməsi üçün zəruri şəraitin yaradılmasını tələb edirlər.




Ermənistanın və bir sıra xarici ölkələrin KİV nümayəndələri isə Azərbaycanın Laçın yolunu bağlaması və bununla da ermənilərin humanitar fəlakətə məruz qalması barədə feyk məlumatları tirajlayırlar. Əslində, nümayişçilərimiz Laçın yolunda hərəkətin bərpasına istənilən yardımı etməyə hazır olduqlarını bildirirlər. Aksiya iştirakçılarından biri, Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Tural İsmayılov belə deyir:

- Bizim heç bir siyasi tələbimiz yoxdur, əsas məqsədimiz Azərbaycan ərazilərində həyata keçirilən ekoloji terrora xitam verilməsinə nail olmaqdır. Biz dəfələrlə bu məsələ ilə bağlı müraciət etsək də, monitorinq qrupunun fəaliyyətinə imkan yaradan icazəni ala bilməmişik. Bura toplaşan insanlar heç bir siyasi tələb irəli sürmür. Hamımızın məqsədi ekoloji fəlakətə son qoymaq, Azərbaycanın sərvətlərinin qanunsuz istismarının qarşısını almaqdır.

Azərbaycanın Baş Prokurorluğu hələ 2018-ci ildə apardığı araşdırmada göstərirdi ki, Ermənistanda və digər ölkələrdə hüquqi qeydiyyatdan keçən "Vallex Group", "Base Metals", "ACP, Lerna Metalurgiayi İnstitute", "Teghout" və digər şirkətlər Azərbaycan ərazilərində qızıl hasilatı biznesinin təşkilində iştirak ediblər. "Vallex Group" adlı qarətçi şirkət erməni biznesmen Valeri Meclumyan tərəfindən təsis edilib, İsveçrədə qeydiyyatdan keçib və özündə bir sıra törəmə şirkətləri birləşdirir. Şirkətə dəstək verənlərdən biri də Rusiyanın "VTB" bankıdır.

"Vallex Group" işğal dövründə Kəlbəcərin "Heyvalı" yatağını istismar edərək qurudub, 2009-2011-ci illərdə 400 min ton filiz emal etməklə emal həddinin normadan 3 dəfə artmasına yol verib. "Heyvalı"nı qurudan bu şirkət 2011-ci ildə Ağdərə rayonundakı "Kaşen" - "Dəmirli" yatağından çıxarılan filizi, əsasən, Avropa ölkələrinə ixrac edib. Xatırlaya bilərikmi hansı Avropa dövlətlərinin vergi orqanları onlara məxsus şirkətlərin işğal edilmiş ərazilərdəki qanun pozuntularını üzə çıxarıb? Kim deyə bilər ki, Cənubi Afrikadan olan mədən mühəndisi Johann Murrayın "Base Metals" tərəfindən işğal altında olan ərazilərimizdə işə necə cəlb edilib? Yaxud bəlkə "Base Metals" şirkətinin (eyni zamanda "Vallex Group" şirkətlər qrupunun) maliyyə investoru, İsveçrə vətəndaşı Vartan Sirmakesin hansı yolla Azərbaycan ərazisində peyda olduğunu bilən var?!

Sözsüz ki, vaxtilə işğal altında olmuş mədənlərin istismarına dəvət edilən xarici şirkətlərin əməkdaşları Ermənistan üzərindən gətirilib. Mütəxəssislər Ermənistandakı yataqlarda işləməyə dəvət olunduqdan sonra işğal edilmiş Azərbaycan ərazilərinə göndəriliblər. "FLSmidth" şirkətinin Loridəki "Teghut" yatağında işləyən mütəxəssislər paralel olaraq "Dəmirli" yatağında da çalışıblar. Onların CV-lərində işlədikləri ölkə kimi Ermənistan, iş yeri kimi "Dəmirli" yatağı göstərilir. Belə faktların sayı yüzlərlə, minlərlədir. Amma bu vəhşiliklərə heç bir qiymət verilmədi, üstündən ötüb keçdilər. Etirazçılar da bunu deyirlər. Deyirlər ki, monitorinq qrupunun fəaliyyətə başlamasına şərait yaradılsın. Şərait yaradılsın ki, heç olmazsa, bundan sonra haqq yerini tapsın, talançılar cəzalandırılsın.

Amma əvəzində nə baş verir? Həmişə olduğu kimi, ermənilər yenə də bizi ittiham etməklə öz cinayətlərinin izini örtməyə çalışırlar. Erməni hərbi birləşmələrinin Xankəndiyə sığınan tör-töküntüləri küy qaldırırlar ki, qoymayın, Laçın yolunu bağlayan azərbaycanlılar bizi qırdılar! Arxasınca isə Ermənistanın xarici işlər naziri erməni düdüyündə (ermənicə bu alətin adı belədir) bir yas havası çalır ki, "arsax"da ermənilər humanitar fəlakətə məruz qalıblar.

Bəli, ermənilər neçə gündür mahir gopçular kimi bu cür xəbərləri tirajlamaqla yaşayırlar. Düşünürlər ki, Hitlerin təbliğatındakı kimi: yorulmadan qulaqları tapdalayan yalan sonda həqiqətə çevrilir. Amma yanılırlar. Ən azından ona görə ki, hədəfimiz aydın, məqsədimiz qətidir - ərazilərimiz kimi sərvətimizin də sahibiyik və ona izanan əlləri kəsməkdə tərəddüd etməyəcəyik. Bu haqqı isə bizdən heç kəs ala bilməz.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Ermənistan təzminat ödəməlidir

Özünü yazıq, məzlum göstərib, müxtəlif proseslərdən faydalanmaq erməninin xislətindədir. Dilənçilik vərdişləridir, onun-bunun hesabına yaşamaq qanlarındadır. Bu millət hər an dostlarına xəyanətə hazır olduqlarından, kişi kimi düşmənçilik etməyi də bacarmırlar.

İllərdir türkə düşmən deyib, düşmənçilik edirlər, unudurlar ki, yaşadıqları bu torpaqları türklər verib onlara. Pis bir niyyətlərini həyata keçirməzdən əvvəl dünyaya car çəkib haray-həşir salmağı "ustalıqla" bacarırlar. Yenə erməni məkri işə düşüb. Blokadaya alınmaları, soyuqdan qırılmaları, işıqsız, qazsız qalmaları barədə utanmadan feyk xəbərlər yayırlar. Guya azərbaycanlılar Xankəndiyə gedən "humanitar" yolu bağlayıblar. Guya Xankəndidə insanlar qaz olmadığı üçün çörəksiz qalıb. Daha nələr, nələr...

Əvvəla o yolu biz yox, rusiyalı sülhməramlılar bağlayıb. İkincisi, ermənilərin humanitar dəhliz dediyi o yol ilə hər gün Ermənistandan Qarabağa qanunsuz silah-sursat daşınır. Üçüncüsü isə, azərbaycanlı fəallar Laçın yolu ilə dinc sakinlərin, təcili yardım maşınlarının gedişi, gəlişi üçün heç bir maneə yaratmırlar. Hətta dəfələrlə ermənilərin başa düşdükləri öz dillərində onlara müraciət edərək istədikləri vaxt onlara kömək etməyə hazır olduqlarını bəyan ediblər.

Azərbaycan illərdir ki, torpaqlarımızı işğal edib yurd yerlərimizi xaraba qoyan, bir milyondan çox vətəndaşımızı didərgin salan, başımıza olmazın faciələr gətirən ermənilərə, Xankəndidə və digər ərazilərimizdə yaşayan erməni əsilli vətəndaşlarımıza 44 günlük müharibədən sonra pulsuz qaz verir.

Yaxşı başa düşürük ki, separatçılar oralarda yaşayan erməniləri fitnəkarlıqla aldadıb yoldan çıxarıblar. Onlar bu gün də erməni "ideoloq"larının əsiridirlər. Məsələ burasındadır ki, çörəyi dizinin üstündə olan bu namərdlər Azərbaycanın etdiyi bu humanistliyi hələ də dəyərləndirə bilmirlər. Nə özlərindən, nə də onları qızışdırıb üstümüzə salan havadarlarından bircə dəfə də olsun dövlətimizin etdiyi humanist hərəkətinə qarşı minnətdarlıqlarını eşitməmişik. Eyni zamanda bu qürursuzlar güc tapıb düşmən deyib qanını tökdükləri millətin verdiyi qazdan özləri də imtina etmirlər. Bu azmış kimi hələ bir az da çoxunu umurlar. Azərbaycanın bunlara pulsuz verdiyi qazın texniki səbəbdən kəsilməsindən Azərbaycan əleyhinə təbliğat kimi istifadə edirlər.

Doğru deyiblər ki, yalançının yaddaşı olmaz. Bu arada "Azadlıq" radiosuna müsahibəsində separatçıların "yeni lideri" olmaq azarına tutulan milyarder Ruben Vardanyan deyib ki, Qarabağda ərzaq, yanacaq və dərman təminatında heç bir problem yoxdur". Eyni zamanda Vardanyan aksiyaçıların təcili yardım və digər nəqliyyat vasitələrini buraxmaq üçün kömək göstərmək barədə məlumatlı olduğunu, ancaq Qarabağın bunu etməyəcəyini bildirib. Məqsəd daha çox hay-həşir salıb dünyanın diqqətini indi də "soyuqdan qırılan", "acından ölən", "blokadada qalan", "xəstə, köməksiz" ermənilərə cəlb etməkdir. İşsiz ermənilərə "kömək" etməyə gələn milyarder Vardanyanın təbii sərvətlərlə zəngin Qarabağa gəlməsinin özəl səbəbləri var. Vardanyan Qarabağdakı faydalı qazıntılar hesabına sərvətlərini bir qədər də artırıb Ermənistanda siyasi hakimiyyətə gəlmək istəyir. Bunun üçün də Qarabağın ən yaxşı tranplin olacağını hesab edir. Artıq erməni milyarderin "Qızılbulaq" və "Dəmirli" mədənlərində qanunsuz istismara başladığı haqda da ciddi məlumatlar var. Vardanyan bir şeyi yaddan çıxarır ki, Azərbaycan təbii sərvətlərinin talan edilməsinə, bunun hesabına güc toplayaraq yenidən silahlanıb üstümüzə gəlməyə heç vaxt imkan verməyəcək.

Xatırladaq ki, ermənilərin qanunsuz istismar etdikləri "Qızılbulaq" və "Dəmirli" yataqları 1958-ci ildən 1988-ci ilə qədər olan dövrdə Azərbaycan geoloqları tərəfindən öyrənilib. Kəlbəcər rayonunun ərazisində olan "Qızılbulaq" yatağının sahəsi 2 kvadratkilometrə qədər ərazini əhatə edib. Ermənilər tərəfindən yataqların istismar işlərinə müxtəlif şirkətlər cəlb olunub. Həmin şirkətlər 2010-2012-ci illərdən başlayaraq fəaliyyət göstərib. Xüsusilə "Qızılbulaq" yatağında istismara daha tez başlanılıb. Yatağın əksər hissəsinin istismar olunduğu barədə məlumatlar var.

Eyni zamanda Ermənistan tərəfindən Tərtər rayonu ərazisindəki "Dəmirli mis-molibden" yatağından və onun ətrafında yerləşən "Gülyataq" və "Canyataq"dan mis-molibden filizlərinin qeyri-qanuni istismar olunduğu kosmik görüntülərlə müşahidə edilib. Odur ki, həmin ərazilərin ekoloji tarazlığının pozulması, ətraf mühitə dəyən zərərin, həmçinin yataqların istismarı zamanı vurulmuş ziyanın müəyyənləşdirilməsi üçün ekoloqlarımız monitorinq aparıb ətraf mühitə - çaylara, meşə, torpaq və bitki örtüklərinə dəymiş zərərləri müəyyənləşdirmək niyyətindədirlər. Amma Ruben Vardanyan və hələ ki, onun toruna düşənlər buna mane olmağa çalışırlar. Bu da haqlı olaraq ictimai fəalların, jurnalistlərin, vətənpərvərlərin ciddi narazılığına səbəb olub. Ermənilərin özbaşınalığına etiraz olaraq günlərdir ki, ictimai fəallar, vətəndaş cəmiyyətinin nümayəndələri Laçın yolunda fasiləsiz olaraq etiraz aksiyası keçirirlər. Aksiya iştirakçılarından Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin sədri Mətanət Əsgərqızı bizimlə söhbətində dedi:

- Ermənilərin torpaqlarımızda törətdikləri ekoloji terrora etiraz olaraq günlərdir ki, burada fasiləsiz dinc etiraz aksiyası keçiririk. Məqsədimiz qanunsuz istismar olunan mədənlərimizdə monitorinq aparmaq, real vəziyyəti yerində öyrənməkdir. Bizdə olan məlumata görə, ermənilər qanunsuz istismar etdikləri ərazilərə zərərli tullantılar basdırırlar. İndiyə kimi etdikləri vəhşiliklərə, qanunsuz əməllərə görə maddi təzminat ödəməyib cəzasız qalan ermənilər elə zənn edirlər ki, bu həmişə belə davam edə bilər. Yenə bildiklərini edəcəklər. Bu, qətiyyən belə deyil. Biz canımızı verib, qanımızı töküb torpaqlarımıza sahib olduğumuz kimi, təbiətimizə, təbii sərvətlərimizə də sahib olmağın yolunu bilirik. Doğru deyiblər ki, xain xoflu olar. Əgər ermənilər deyildiyi kimi, oralarda qanunsuz qazıntılar aparıb, ekoloji terrorla məşğul olmayıblarsa, onda bizim orada monitorinq aparmağımıza niyə mane olurlar? Biz qərarımızda qətiyik. Tələbimiz yerinə yetirilməsə, bu aksiya aylarla davam edə bilər. Ölərik, amma məqsədimizə çatmamış yolumuzdan dönmərik.

Bir daha buradan dinc ermənilərə, mülkü vətəndaşlara səslənirəm ki, onlar üçün yol açıqdır. Amma torpaqlarımıza silah daşıyıb, yeni müharibə ocağı yaratmaq istəyənlərin arzularını gözlərində qoyacağıq. Laçın yolu deyildiyi kimi, humanitar məqsədlər üçün verilib. Revanşistlər, separatçılar bu yoldan keçib fitnəkarlıqlar törədə bilməz.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Ekoloji terrorla bağlı dünya beyin mərkəzlərinə müraciət edilib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Azərbaycan ərazilərində "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq dünyanın ətraf mühit siyasəti sahəsində olan aparıcı beyin mərkəzlərinə müraciət edib.



AZƏRTAC xəbər verir ki, müraciətdə Azərbaycan ekoloqlarının Rusiya sülhməramlılarının müvəqqəti fəaliyyət göstərdiyi Azərbaycan ərazilərində "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz etdiyi bildirilir. Azərbaycanlı ekoaktivistlər "Ekoloji terrora son!", "Öz ərazilərimizdə monitorinqin qarşısını alma!" şüarları ilə planetin həyat qabiliyyətini təhdid edən ekosid və qeyri-qanuni istismarın qarşısını almağa çağırırlar. Eyni zamanda Azərbaycan ərazilərində yerləşən faydalı qazıntı yataqlarında azərbaycanlı mütəxəssislərin monitorinq və qiymətləndirmə aparmasına şərait yaradılması əsas tələb kimi irəli sürülür.

Vüsal Qasımlı dünyanın ekoloji sahədə fəaliyyət göstərən beyin mərkəzlərinin diqqətinə çatdırır ki, Azərbaycanın Ağdərə şəhəri ətrafında yerləşən "Qızılbulaq" qızıl yatağı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bağlanılan sazişə uyğun olaraq "R.V.Investment" şirkəti tərəfindən istismar olunmalıdır. Lakin yataq Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə olduğu üçün tərəflər arasında imzalanan saziş icra edilmir. Əvəzində istismarla məşğul olan "Base Metals" şirkətinin təkcə 2009-2017-ci illərdə "Qızılbulaq" yatağının istismarı nəticəsində 178 milyon dollar qazandığı sübuta yetirilib. Qarabağ ərazisində 2010-cu ildən fəaliyyətə başlayan və ilkin hesablamalara görə, illik gəliri 8 milyon ABŞ dolları təşkil edən şirkət "Qızılbulaq" yatağından hər ay 12 min ton filiz çıxarıb, saflaşdırma kombinatında ilkin emaldan sonra Ermənistana aparıb və orada təkrar emal olunduqdan sonra dünya bazarına çıxarıb.

Vüsal Qasımlı müraciətində aparılan araşdırmaların nəticəsini diqqətə çatdırır və bildirir ki, bir-birindən 15 kilometr uzaqlıqda yerləşən "Qızılbulaq" və "Dəmirli" yataqlarının Vətən müharibəsindən sonra istismarı dayandırılıb. Lakin bədnam rusiyalı milyarder Ruben Vardanyanın Rusiyaya qarşı tətbiq edilən beynəlxalq sanksiyalardan qaçıb Qarabağa gəlməsi və Qarabağ separatçılarının rəhbərliyinə - qondarma "dövlət naziri" postuna gətirilməsindən sonra yataqlarda yenidən qanunsuz fəaliyyətə başlanılıb. Son dövrlər isə "Azersky" peyklərinin təsvirləri vasitəsilə "Dəmirli" mədən yatağının 740 hektar ərazisində ermənilər tərəfindən qanunsuz olaraq geoloji kəşfiyyat, qazıntı-hasilat işlərinin və yeni infrastruktur elementlərinin tikintisinin aparıldığı müəyyənləşdirilib. Nəticədə ətraf mühitə böyük ziyan dəyib, çaylar və yeraltı sular ağır metallarla çirkləndirilib. Uzun illər bu ərazilərdə ekosidlər törədilib, yanğınlar təşkil edilib, su hövzələri kimyəvi çirklənməyə məruz qalıb, Azərbaycan dövlətinə məxsus sərvətlər qanunsuz istismar olunub.

İİTKM-in icraçı direktoru Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə Azərbaycan Respublikasının daxili qanunvericiliyinin pozulduğunu, beynəlxalq konvensiyaların tələblərinə əməl olunmadığını diqqətə çatdırır. Bildirir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə "Qızılbulaq" və "Dəmirli" mədənlərində qanunsuz sahibkarlıqla məşğul olaraq qanuni sahibi Azərbaycan dövləti olan sərvətlərimizi talan edənləri 7 ilədək həbs cəzası gözləyir və onlar Azərbaycan Respublikasına dəymiş ziyanın 4 mislini dövlət büdcəsinə ödəməlidirlər.

Vüsal Qasımlı bildirir ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə qanunsuz fəaliyyətlər və törədilən ekoloji terror beynəlxalq konvensiyalara da ziddir. Xüsusilə hərbi konfliktlər zamanı mədəni dəyərlərin qorunması haqqında Haaqa Konvensiyası, 1907-ci ildə qəbul edilən IV Haaqa Qaydaları, 1949-cu ildə qəbul edilən IV Cenevrə Konvensiyası qanunsuz fəaliyyəti qəti şəkildə rədd edir. İşğal olunmuş ərazilər üzrə Cenevrə Konvensiyası şirkətlərə uzun müddət işğal altında olan və faktiki statusu aydın olmayan ərazilərdə mədən hasilatı aparmağı qadağan edir. Beyin mərkəzlərinə ünvanlanan müraciətin mətnində qeyd olunub ki, ekoloji problemlər, ətraf mühitin və su hövzələrinin çirkləndirilməsi BMT-nin qəbul etdiyi Davamlı İnkişaf Konsepsiyası və Dayanıqlı İnkişaf Məqsədləri ilə ziddiyyət təşkil edir. O cümlədən yataqların qanunsuz istismarı, ətraf mühitə zərər vurulması, su hövzələrinin çirkləndirilməsi və bu ərazilərdə qanuni sahib olan dövlətin - vətəndaşların monitorinqinə şərait yaradılmaması BMT tərəfindən qəbul edilən "Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya (Espo Konvensiyası), "BMT-nin Avropa İqtisadi Komissiyasının Ətraf mühit ilə bağlı məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Konvensiyası"na (Orxus Konvensiyası) tamamilə ziddir.

Müraciətdə həmçinin qeyd olunur ki, azərbaycanlı ekoaktivistlərin ekoloji terrora etirazı ilə bağlı saxta xəbərlər Ermənistan tərəfindən dünya mediasına yanlış informasiya kimi ötürülür.

Etiraz məktubu ABŞ, Türkiyə, Avropa İttifaqı, Yaponiya, Çin, Rusiya və başqa ölkələr də olmaqla 100-dən artıq beyin mərkəzinə ünvanlanıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Qəbələ rayonunda Qəbələ və İsmayıllı rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Qəbul zamanı müraciət edən vətəndaşlardan bir hissəsi şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları olub.

Vətəndaşlar sosial təminat növləri, o cümlədən pensiya və ünvanlı sosial yardım, müavinət, eləcə də əlillik, reabilitasiya xidmətlərinə və aktiv məşğulluq proqramlarına cəlbedilmə, mənzillə təminat və s. məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin hər biri fərdi qaydada araşdırılaraq nəticəsinə əsasən tədbirlər görülüb.

* * *

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ayın 16-da Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Mədəniyyət nazirinin budəfəki qəbulu Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan, Şuşa şəhər və rayonlarını əhatə edib. Eyni zamanda qəbulda digər şəhər və rayonlardan gəlmiş vətəndaşların da müraciətləri dinlənilib.

Nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Sakinlərin müraciətləri əsasən işlə təmin olunma, iş yerinin dəyişdirilməsi, sərgi və kitab təqdimatının keçirilməsinə dəstək göstərilməsi, fəxri adın verilməsi, əmək müqaviləsinin uzadılması, mədəniyyət müəssisələrinin təmiri, fəaliyyəti və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

* * *

Dekabrın 16-da Ali Məhkəmənin sədri Ramiz Rzayev Qusar Rayon Məhkəməsinin inzibati binasında Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, xüsusilə Vətən müharibəsi iştirakçılarının, qazilərin və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılıb, məhkəmələrin fəaliyyəti ilə bağlı qaldırılan məsələlərin bəzilərinin həlli ilə bağlı müvafiq tövsiyələr verilib. Digərləri isə araşdırılması və onların qanunauyğun şəkildə həll edilməsi üçün Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə tapşırıqlar verilib.

*AZƏRTAC*

# Büdcəyə vergi daxilolmaları ilk dəfə 15 milyard manatı ötüb

Dekabrın 15-nə olan məlumata görə, dövlət büdcəsinə vergi daxilolmalarının həcmi ilk dəfə 15 milyard manatı keçib.

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

"Qeyri-neft və qaz sektorundan daxilolmalar isə 7,9 milyard manata çatıb. Qeydə alınan bu rekord göstərici həyata keçirilən mütərəqqi iqtisadi islahatların, səmərəli vergi inzibatçılığı və əlverişli biznes mühitinin təmin edilməsinin, cəmiyyətdə vergi mədəniyyətinin yüksəlməsinin nəticəsidir. Öhdəliyini dürüst yerinə yetirən vicdanlı vergi ödəyicilərinə və Dövlət Vergi Xidmətinin əməkdaşlarına təşəkkürümüzü bildiririk", - deyə nazir vurğulayıb.

# İndeksləşdirmə əsasında artım gələn ilin əvvəlindən bütün pensiyalara şamil olunacaq

## Pensiya artımında vahid indeksasiya metoduna keçildi

Prezident İlham Əliyevin təsdiq etdiyi yeni qanun - "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən növbəti addımdır.

Yeni qanun pensiyaların indeksləşdirilərək artırılmasında gələn ilin əvvəlindən bütün növ pensiyalara münasibətdə vahid, bərabər yanaşmaya keçidi təmin edir.

Qulluq stajına görə əlavə alan pensiyaçıların (dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslər və s.) pensiyaları əgər bu vaxta qədər onların işləmiş olduqları sahələrdə əməkhaqqı artımı olduqda artırdısa, bundan sonra həmin pensiyalar da digər pensiyalar kimi hər ilin əvvəlində indeksləşdirilərək artırılacaq. Nəticədə həmin şəxslərin pensiyalarında da hər il artım baş verəcək.

Digər tərəfdən, xüsusi şərtlərlə pensiya alan şəxslərin pensiyalarına bu il üzrə hər ay ödənilən 10 faiz həmçinin ümumi əsaslarla pensiya alan şəxslərin pensiyalarına isə il ərzində ödənilən 200 manat maddi yardımın bir aya düşən məbləği (16,67 manat) 2023-cü il yanvarın 1-dən onların pensiyalarının tərkibinə daxil ediləcək. Bundan sonra yekun pensiya məbləğləri 2022-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun indeksləşdirilib artırılacaq. Məsələn, xüsusi şərtlərlə pensiya təyin edilmiş şəxsin pensiyası 1000 manatdırsa, bu il əlavə dəstək olaraq hər ay verilən 10 faiz (100 manat) maddi yardımla birgə 1100 manat hesablanmaqla, indeksasiya faizi qədər artım bu yekun məbləğin (1100 manat) üzərinə əlavə ediləcək.

Qeyd edək ki, son 10 ildə bu kateqoriyadan olan şəxslərin böyük əksəriyyətinin pensiyasında ən yüksək artım 70 faiz olubsa, ümumi əsaslarla pensiyaya çıxan şəxslərin pensiyalarında indeksasiya nəticəsində artım 98 faiz olub.

Bu da vahid indeksasiya metoduna keçidin xüsusi şərtlərlə pensiyaya çıxan şəxslərin pensiyalarının davamlı artımı üçün daha effektiv və onların mənafeyinə uyğun olduğunu göstərir.

Eyni zamanda hər il pensiyaların indeksləşdirilərək artırılması elektron qaydada həyata keçirilir və xüsusi şərtlərlə təyin edilmiş pensiyaların da növbəti ildən e-sistem üzərindən artırılması təmin olunacaq. Bununla həm də aidiyyəti qurumların bu sahədə inzibatçılığını yüngülləşdirməklə, əməkhaqqı artımı ilə bağlı hər hansı məlumat təqdim etmə öhdəliyi də aradan qalxacaq.

Eləcə də dövlət qulluqçusu, hərbi qulluqçu və digər bu kateqoriyadan olan şəxslərə pensiya təyin edildikdən sonra onlar da azı 6 il işlədikdə (və ya pensiya təyin edildikdən sonra bir müddət işləyib daha işləmədikdə) topladıqları kapitala əsasən hesablanacaq artım pensiyalarının ümumi məbləğinin üzərinə əlavə ediləcək və daha yüksək məbləğdə pensiya məbləğlərinin formalaşmasına səbəb olacaqdır.

# Azərbaycan QHT Agentliyi təbii resurslarımızın qanunsuz istismarı ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurası beynəlxalq təşkilatlara və xarici qeyri-hökumət təşkilatlarına müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət tərəfindən Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparılması ilə bağlı razılıq əldə olunmuşdur.

Lakin sülhməramlıların komandanı 2022-ci il dekabrın 10-da əldə olunan razılığı kobud şəkildə pozaraq monitorinqin keçirilməsinə maneə yaratmış və beləliklə, monitorinq baş tutmamışdır.

Azərbaycanın qeyri-hökumət təşkilatları, ekoloqları və vətəndaş cəmiyyəti fəalları Rusiya sülhməramlılarının bu hərəkətinə, eyni zamanda ölkəmizin təbii resurslarının, xüsusilə qızıl və mis yataqlarının qanunsuz istismarına və talan olunmasına, həmçinin həmin ərazilərdə baş verən ekoloji terrora etiraz olaraq artıq beş gündür Xankəndi-Laçın yolunda dinc aksiya keçirirlər.

Aksiya iştirakçılarının tələbi çox sadədir: Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına və talanmasına son qoyulsun!; Bu ərazilərdə törədilən ekoloji terror dayandırılsın və həmin ərazilərin monitorinqinə şərait yaradılsın!

Bundan başqa, dekabrın 14-də Ermənistan silahlı qüvvələri tərəfindən işğaldan azad olunmuş Kəlbəcər ərazisində basdırılan mina partlayışı nəticəsində 7 soydaşımızın yaralanması və 1 hərbçimizin şəhid olması aksiya iştirakçılarının tələblərinin genişlənməsinə səbəb oldu.

Hazırda ölkə QHT-ləri Ermənistanın Laçın yolu vasitəsilə Azərbaycanın suveren ərazisinə qanunsuz silah-sursatın və hərbi dəstələrin daşınmasına, milli sərvətlərimizin ölkədən çıxarılmasına və mina terroruna son qoyulmasını tələb edirlər.

Təəssüf ki, Ermənistan və erməni lobbisi Azərbaycan QHT-lərinin dinc aksiyasının mahiyyətini bilərəkdən təhrif etməyə, məsuliyyətdən yayınmaq məqsədilə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır və Xankəndi-Laçın yolunda baş verən hadisələrlə bağlı yalan və böhtan kampaniyası aparırlar.

Ermənistanın siyasi rəhbərliyi və erməni separatçıları aksiya iştirakçılarının, guya, Laçın yolunu bağlayaraq Xankəndidə və ətraf ərazilərdə yaşayan ermənilərin blokadaya alınması, onların humanitar fəlakətə və ya etnik təmizləməyə məruz qalması, təbii qaz nəqlinin dayandırılması haqqında beynəlxalq təşkilatlara və xarici ölkələrə həqiqətə uyğun olmayan müraciətlər edirlər.

Tam məsuliyyət hissi ilə bəyan edirik ki, bu məlumatların heç bir əsası yoxdur, hamısı yalan və böhtandır.

Bu yalanlara cavab olaraq diqqətinizə onu da çatdırırıq ki, QHT-lər və ekoloqlar Laçın yolunda nəqliyyatın və insanların sərbəst hərəkətinə hər hansı bir məhdudiyyət yaratmayıb, Rusiya sülhməramlılarının nəqliyyat vasitələrinin və humanitar yüklərin sərbəst hərəkəti buna əyani misaldır.

Qarabağda yaşayan ermənilərin təbii qazla və ərzaqla təmin olunmasında da onların bu gün etiraf etdiyi kimi heç bir problem yoxdur. Bundan başqa, Azərbaycan dövləti bu ərazidə yaşayan erməniəsilli vətəndaşların bütün ehtiyaclarını qarşılamağa hazır olduğunu da bəyan edib.

Ermənistanın siyasi rəhbərliyinin QHT-lərin Azərbaycanın təbii resurslarının qanunsuz istismarının dayandırılması, ekoloji terrora son qoyulması və həmin ərazilərdə monitorinqin aparılması kimi sivil və beynəlxalq humanitar qanunlarla müdafiə olunan legitim tələblərinə bu cür əsassız reaksiyası və beynəlxalq ictimai rəyi manipulyasiya etmək cəhdi qəbuledilməzdir və belə çirkin kampaniyanın təşkili onların məsuliyyətdən yayınmaq istəyindən xəbər verir.

Hesab edirik ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın bütün bəndlərinə əməl etməli, xüsusilə qanunsuz silahlı qüvvələrinin qalıqlarını Azərbaycandan çıxarmalı, təbii resursların qanunsuz istismarını dayandırmalı və ekoloji terrora son qoymalıdır.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurası olaraq bütün beynəlxalq təşkilatlara, ətraf mühitin və ekologiyanın mühafizəsi ilə məşğul olan xarici ölkə, o cümlədən Ermənistan QHT-lərinə müraciət edir, Azərbaycan QHT-lərinin irəli sürdükləri haqlı tələbləri dəstəkləməyə çağırırıq.

# Növbəti "Abad həyət" sakinlərin istifadəsinə verildi







Nəsimi rayonunda küçə və parkların, məhəllə və binaların abadlaşdırılması, həyətlərin yenidən qurulması, yeni infrastrukturların yaradılması, yaşıllıqların salınması işləri uğurla davam etdirilir.

AZƏRTAC xəbər verir ki, həyata keçirilən silsilə tədbirlər çərçivəsində 600-dən artıq sakinin yaşadığı 8 girişli, 5 mərtəbəli olmaqla, Asif Məhərrəmov küçəsi 60 saylı binada və ətraf ərazidə abadlıq, quruculuq işləri başa çatdırılaraq həyət sakinlərin istifadəsinə verilib.

Hazırlanmış layihəyə uyğun olaraq Asif Məhərrəmov küçəsi 60 saylı binanın fasadı və dam örtüyü əsaslı təmir edilib, yeni yağış suları axıdan borular və navalçalar quraşdırılıb, 8 giriş qapısı və 32 pilləkən qəfəslərinin pəncərələri dəyişdirilib. Binanın giriş pilləkənləri aqlay daşla üzlənib. Binanın həyətinə giriş və çıxış üçün 3 yerdə pilləkən quraşdırılıb. Həyətdə tikililərin fasadları təmir edilərək rənglənib.

Görülmüş işlər çərçivəsində binanın həyətində zəbt olunmuş sahələr əhalinin ümumi istifadəsinə qaytarılıb, kiçik tullantılar üçün zibil konteynerləri qoyulub. Sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün binanın həyətinə söhbətgah və oturacaqlar qoyulub, müxtəlif növ uşaq oyun elementləri və idman qurğuları quraşdırılıb.

Abadlıq işləri aparılan ərazidəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, məhəllədə yeni yaşıllıq zolağı salınıb, ağaclar əkilib, mövcud yaşıllıqlara və ağaclara aqrotexniki qaydada qulluq olunub. Həyətdə 4 nöqtədə işıqlandırma sistemləri quraşdırılıb.

Rayon ərazisində aparılan abadlıq-quruculuq və yenidənqurma işləri əhalinin böyük razılığı ilə qarşılanıb, görülən işlərə görə rayon sakinləri dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

Hazırda rayonun daha bir neçə ünvanında abadlıq-quruculuq və yenidənqurma işləri aparılır.






# Köhnə tanışlar yenidən üz-üzədirlər

Bu gün "DÇ-2022"-nin bürünc medalları uğrunda Xorvatiya və Mərakeş millilәri üz-üzə gələcəklər. Komandalar turnirin F qrupunda mübarizə aparıblar. Həmin görüşdə qapılara top vurulmamışdı. İndi isə köhnə tanışlar yenidən üz-üzədirlər.

Mərakeş Dünya çempionatına yeni baş məşqçi ilə qatılıb. Komandaya yerli Valid Reqraqi başçılıq edir. Yığmanı mundiala daşıyan isə Vahid Halilhodjiç olmuşdu.

Bundan əvvəlki matçlarda topu rəqiblərinə verərək daha çox topsuz oyunda iştirak edən Mərakeş komandasında fiziki hazırlığın istənilən səviyyədə olduğunu izlədik. Komanda xüsusilə müdafiənin arxasına atılan ötürmələrlə sürətli keçid oyun planını yüksək səviyyədə yerinə yetirir. Afrika təmsilçisi 2-ci və 3-cü zonada yaxşı təsir bağışlasa da, son ötürmələrində dəqiqlik olmayıb.

Xorvatiya isə demək olar ki, baxımlı və daha çox qısa ötürmələrə üstünlük verən oyun planına üstünlük verir. Müdafiənin mərkəzində yer alan Lovren və Qvardiolun komanda hücuma qoşularkən daha çox irəli çıxmaları, geridönüşlərdə xorvatlara çətinlik yarada bilər. Cinah müdafiəçilərinin mövqe sığortalamasında isə müəyyən çətinliklər yaşadığının şahidi olduq. Bir sözlə, toplu və topsuz oyunlarda daha fərqli anlayışlara sahib komandaların növbəti dəfə mübarizəsini izləyəcəyik. Maraqlı və bol qollu bir qarşılaşma izləyəcəyimiz ehtimalı yüksəkdir.



Ləqəbi "Atlas aslanları" (Şimali Afrika aslanları) olan Mərakeş buna kimi 6 dəfə Dünya çempionatında iştirak edib. Millinin mundiallarda ən böyük uğuru 1986-cı ilə təsadüf edir. İngiltərə, Polşa və Portuqaliya ilə bir qrupda mübarizə aparan "Atlas aslanları" növbəti raunda qrup birincisi kimi çıxıb. Yığma 1/8 finalda Qərbi Almaniyaya uduzaraq (0:1) mundialla vidalaşıb.

Afrika təmsilçisinin heyətinin dəyəri 227,40 milyon avrodur. Komandanın 25 üzvü legioner həyatı yaşayır. Ən dəyərli oyunçu Əşrəf Hakimidir. Fransada PSJ-də forma geyən müdafiəçinin qiyməti 65 milyon avrodur. Millidə "Bavariya"dan Nussar Mazraui, "Çelsi"dən Hakim Ziyeş kimi ulduz futbolçular çıxış edir.

Qeyd edək ki, Xorvatiya 1994-cü ilə qədər Yuqoslaviyanın tərkibində beynəlxalq oyunlara çıxıb. Yerli federasiya buna qədər FİFA-nın rəsmi üzvü olmayıb. Xorvatlar 1994-cü ildən quruma üzv ölkələr arasına daxil olublar. Ləqəbi "damalılar", "blazerlər" olan milli "DÇ-2022"-yə qədər 5 mundialda iştirak edib. Yığmanın ən böyük uğuru 2018-ci il mundialında gümüş medal qazanmasıdır. Rusiyada keçirilən Dünya çempionatında finala qədər yüksələn xorvatlar həlledici oyunda Fransaya uduzublar.

Xorvatiya mundialların final mərhələsinə qədər yüksələn ən gənc yığmadır.

"Damalılar" 1998-ci ildə keçirilən Dünya çempionatında da bürünc medal qazanıblar. Xorvatiya futbol tarixinin ən tanınmış oyunçularından olan Davor Şukerin bombardir olduğu mundialda komanda yarımfinalda Fransaya uduzub, 3-cü yer uğrunda matçda isə Niderlandı məğlub edib. Şuker bu mundialda 6 qolla bombardir olub. Komandada "Çelsi"dən Mateo Kovaçiç, "Real"dan Luka Modriç, "İnter"dən Marselo Brozoviç kimi ulduz futbolçular çıxış edirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*17 dekabr təqvimi*

**3-CÜ YER**

**Xorvatiya- Mərakeş (19:00)**

## Di Mariya finala hazırdır



Argentina millisinin üzvü Anhel Di Mariya zədəsini tam sağaldıb. Komanda yoldaşları ilə məşq edən 34 yaşlı yarımmüdafiəçi "DÇ-2022"-nin Fransa ilə keçiriləcək final matçına hazırdır. Di Mariya mundialın qrup mərhələsinin 3-cü turunda Polşa ilə oyunda zədələnmişdi.

Qeyd edək ki, sabah keçiriləcək Argentina - Fransa matçı saat 19:00-da başlayacaq.

## Polşalı referiyə etimad



Sabah mundialın finalında keçiriləcək Argentina - Fransa oyununun hakimləri açıqlanıb. Matçı polşalı referi Şimon Marçinyak idarə edəcək. Ona yan xətt hakimləri Pavel Sokolnitski və Tomaş Listkeviç kömək göstərəcəklər. Dördüncü hakim funksiyasını ABŞ-dən olan İsmail Elfat yerinə yetirəcək.

## Mərakeşdən FİFA-ya şikayət

Mərakeş Futbol Federasiyası yarımfinalda Fransa ilə keçirilən oyunun hakimliyindən FİFA-ya şikayət edib. Bu barədə "Foot Mercato" məlumat yayıb. Mənbənin məlumatına görə, federasiya Fransanın cərimə meydançasında rəqibin müdafiəçi Teo Hernandesin mərakeşli hücumçu Sofian Bufalla toqquşduğu epizodda hakimin verdiyi qərardan narazıdır. Onlar Hernandesin cəzalandırılmalı olduğunu düşünürlər. Bu epizoddan sonra isə fransızlar hücuma keçiblər və Teo Hernandes Mərakeşin qapısına qol vurub.

Qeyd edək ki, Fransanın 2:0 hesablı qələbəsi ilə başa çatan matçı meksikalı Sezar Ramos idarə edib.

## Messi məşqə qatılmadı



Argentina millisinin kapitanı Lionel Messi komandanın son məşqində iştirak etməyib. Qol.az xəbər verir ki, 35 yaşlı hücumçu Xorvatiya ilə keçirilən yarımfinal matçında (3:0) sol ayağının bud nahiyəsindən zədə alıb. O, ayağındakı ağrıya baxmayaraq matçı davam etdirib. Messinin zədəsinin nə dərəcədə ciddi olması bəlli deyil. Lakin onun Fransa ilə final matçında iştirak edəcəyi gözlənilir.

## Hakim təyinatları



Bu gün "DÇ-2022"-nin 3-cü yer uğrunda keçiriləcək Xorvatiya - Mərakeş oyununun hakimləri açıqlanıb. Qarşılaşma qətərli FİFA referisi Əbdülrəhman Əl-Jassimə tapşırılıb.

Ona həmyerliləri Taleb Əl-Marri və Saud Əl-Maqaleh yan xətt hakimləri qismində kömək edəcəklər. Dördüncü hakim funksiyasını Braziliyadan olan Rafael Klaus yerinə yetirəcək.

## Deşamdan növbəti tarixi uğur

Fransa millisinin baş məşqçisi Didye Deşam yeni uğura imza atıb. Bu, onun komandasının "DÇ-2022"-nin yarımfinalında Mərakeşə qalib gələrək (2:0) finala adlaması ilə reallaşıb. 54 yaşlı mütəxəssis 4 il əvvəl - "DÇ-2018"-də də yığmanı finala çıxarmağı bacarmışdı. Hətta onun komandası həmin vaxt Xorvatiyaya 4:2 hesabı ilə qalib gələrək Dünya çempionu adını qazanmışdı. Ümumilikdə isə Deşam Fransa millisi ilə ardıcıl 2 dəfə mundialların finalına adlayıb. O, bunu bacaran 4-cü baş məşqçi kimi tarixə düşüb.



Daha əvvəl belə nəticəyə Vittorio Pozzo (İtaliya, 1934 və 1938-ci illər), Karlos Bilardo (Argentina, 1986 və 1990-cı illər) və Frans Bekkenbauer (Almaniya, 1986 və 1990-cı illər) çatıb.

Qeyd edək ki, Fransa "DÇ-2022"-nin finalında Argentina ilə üz-üzə gələcək. Dekabrın 18-i "Lusail" stadionunda keçiriləcək görüş Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

Xatırladaq ki, Deşam 2012-ci ildən Fransa millisini çalışdırır.

## Daliç komandasına inanır

Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç "DÇ-2022"-də 3-cü yer uğrunda oyundan gözləntilərini bölüşüb. O deyib: "Şənbə günü keçiriləcək görüş bizim üçün kiçik deyil, böyük finaldır. Üçüncü yer medal uğrunda mübarizədir. Biz hər cəhətdən hazırlaşmalıyıq, Bu, böyük məsələdir, bürünc medal qazansaq, əla olacaq. Futbolçularla bağlı problemimiz var, Qvardiola iynə vurulub, ayağı zədələndiyi üçün iki gün məşq etməyib. Bu, bizim üçün böyük oyundur, bizə hazır oyunçular lazımdır. Dünya çempionatında üçüncü və ya dördüncü olanda fərq var. Qalib gəlmək üçün hər şeyi edəcəyik".



## "Argentinanın inanılmaz heyəti var"



Fransa millisinin futbolçusu Teo Hernandes finalda Argentinaya qarşı keçirəcəkləri oyundan danışıb. "La Gazetta dello Sport"a açıqlama verən müdafiəçi rəqib komandanın kapitanı Lionel Messidən çəkinmədiklərini deyib: "Final haqqında düşünməliyik. Matça qədər tam hazır olmalıyıq. Messidən qorxmuruq. Amma Argentinanın inanılmaz heyəti var. Hazırlaşmaq üçün bir neçə günümüz qalıb".

## Qrizmanndan açıqlamalar



"Siz özünüz də bilirsiniz ki, çətin final olacaq: Messi, argentinalılarla dolu bir stadion. Amma bizim də belə oyunlar üçün komandamız və məşqçimiz var. Bizə güvənə bilərsiniz, hazır olacağıq və oyuna yaxşı formada çıxacağıq". Bu sözləri Fransa millisinin hücumçusu Antuan Qrizmann "Foot Mercato"ya açıqlamasında deyib.

"Atletiko"nun futbolçusu finalda Argentina ilə keçiriləcək oyundan danışarkən rəqibin kapitanı Lionel Messinin yaxşı formada olduğunu və bunun onlara çətinlik yaradacağını bildirib: "Bizi çox gözəl matç gözləyir. Argentina çətin rəqibdir, komandası bura qədər əla çıxış edib. Leo yarımfinalda çox yaxşı oynadı. Görürük ki, yaxşı formadadır. Hər şey matça nə qədər yaxşı hazırlaşmağımızdan asılıdır. Bazar günü 100 faiz hazır olmaq üçün hər şeyi edəcəyik".



## Santuş da getdi

Portuqaliya millisinin baş məşqçisi Fernandu Santuş istefa verib. Bu barədə Portuqaliya Futbol Federasiyasının saytında qeyd olunub. 68 yaşlı mütəxəssisin müqaviləsi 2024-cü ilədək olsa da, tərəflər müqaviləyə vaxtından əvvəl xitam etmək barədə razılığa gəliblər.

Qeyd edək ki, Fernandu Santuş 2014-cü ildən Portuqaliya millisini çalışdırırdı. Onun rəhbərliyi altında yığma 2016-cı ildə Avropa çempionu və 2019-cu ildə Millətlər Liqasının qalibi olmuşdu.

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.12.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



## "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

**Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinə müvafiq olaraq "Səba" ASC-nin Direktorlar Şurasının qərarına əsasən, 31 yanvar 2023-cü il saat 15:00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında cəmiyyətin inzibati binasında "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının Növbədənkənar Ümumi Yığıncağı keçiriləcək.**

**Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir.**

**Gündəlikdəki məsələlər:**

1. "Səba" Açıq Səhmdar Cəmiyyətinə bərpa olunmayan kredit xəttinin açılması üçün ASC "Xalq" Bankına müraciət olunması.
2. Bankla cəmiyyət arasında bağlanması nəzərdə tutulan kredit xətti müqaviləsi üzrə kredit öhdəliklərinin icrasının təminatı qismində cəmiyyətə məxsus daşınmaz əmlakın bankın xeyrinə sonrakı girov/ipotekaya qoyulması.
3. "Səba"ASC-nin Direktorlar Şurası barədə.
4. Digər məsələlər.

**Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar Ümumi Yığıncağın gündəliyinin layihəsinə dair təkliflər vermək və gündəliyə daxil edilmiş məsələ (və ya məsələlər) üzrə müvafiq sənədlərlə Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında tanış olmaq hüququna malikdirlər.**

Cəmiyyətin bütün səhmdarlarının diqqətinə çatdırılır ki, hazırda ölkədə davam edən pandemiya şəraiti ilə əlaqədar olaraq Ümumi Yığıncağın, məsafədən (onlayn) qaydada Zoom proqramı vasitəsilə səhmdarların cəmiyyətə təqdim etdikləri telefon nömrələrinə və ya e-mail ünvanlarına bir neçə gün öncədən iştirak linki göndərməklə keçirilməsi mümkündür.

**Gündəliklə əlaqədar münasibət bildirilməsi üçün və ümumi yığıncağın onlayn qaydada keçirilməsi zamanı təlimat almaq üçün əlaqə telefonu: (+994 12) 404-44-41;**

**Ümumi Yığıncağın keçiriləcəyi ünvan: AZ 0100, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1.**

*İdarə Heyəti*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan "Balakən" gəmisinin MAN 5S26MC markalı baş və MAN 2876LE301 markalı köməkçi mühərrikləri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1242**

*Tender komissiyası*






## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Kəskin respirator virus infeksiyaları artır

Son günlər əhali arasında boğaz ağrısı, qızdırma və halsızlıqla müşahidə edilən respirator virus infeksiyaları sürətlə yayılıb. Demək olar ki, ətrafımızda olan hər beş insandan ikisi qripə yoluxub. Eyni hal Avropada da müşahidə olunur. Belə ki, Avropanın 20 ölkəsində respirator sinsitial virusu aktivləşib. Bu ölkələrdə həmin virusla xəstələnənlərin hospitalizasiyası iki aydır ki, artmaqda davam edir. Virus infeksiyasına yoluxanlar arasında yaşı 55-dən yuxarı olanlar üstünlük təşkil edirlər.



## Müraciət edən hər kəsdən COVID-19 testi götürülür

Ölkəmizdə də müşahidə edilən qeyri-sabit hava şəraiti, ani temperatur dəyişkənliyi hava-damcı yolu ilə yoluxan virus infeksiyalarının yayılması üçün əlverişli şərait yaradır. Kliniki Tibbi Mərkəzin həkim-infeksionisti Aişə Kərimova deyir ki, son günlərdə xüsusən boğaz ağrısı ilə başlayan xəstəliklərdə artım müşahidə olunur: "Havanın temperaturunun birdənbirə aşağı düşməsi və kəskin temperatur fərqlərinin yaranması nəticəsində əhalidə belə xəstəliklər artır. Bunlar, əsasən, yuxarı tənəffüs yollarının dəqiqləşdirilməmiş kəskin infeksiyası adı altında toplanır. Daha çox rinovirus, koronavirus və adenoviruslara rast gəlinir. Koronaviruslar dedikdə, sadəcə COVID-19 deyil, daha əvvəllər də qış mövsümündə yayılan, öldürücülüyü yüksək olmayan növlər nəzərdə tutulur".

A.Kərimova qeyd edir ki, kəskin respirator virusu ilə bağlı müraciətlər də artıb: "Xəstəliyin əlamətləri boğaz ağrısı, quru öskürək, gözlərdə qızarma və yaşarma, burun tıxanıqlığı və temperaturun olmasıdır. Xəstəlik yüngül və orta-ağır keçir. Orta-ağır xəstələr stasionar müalicəyə cəlb edilərək daha intensiv terapiyaya başlayırlar".

Həkim-infeksionist bildirir ki, yuxarı tənəffüs yollarının dəqiqləşdirilməmiş kəskin infeksiyaları ilə müraciət edən, stasionara qəbul olunmuş hər bir xəstədən COVID-19 testi götürülür: "Əgər xəstədə koronavirus aşkarlanarsa, o, uyğun müalicə istiqamətinə yönləndirilir. Həmçinin xəstəxanaya digər patologiyalarla daxil olmuş xəstələr də müayinə olunur və test götürülür. Hələlik bu xəstələr arasında COVID-19-a yoluxanlara rast gəlinməyib".

"Xəstələrin digər viruslara yoluxması onu göstərir ki, bəzi vətəndaşlar şəxsi gigiyenalarına diqqət etmirlər. Ölkəmizdə pandemiya dövründə vəziyyət məqbul idi, xəstə sayında ötən illərlə müqayisədə azalma vardı. Bunun başlıca səbəbi pandemiya ilə əlaqədar tibbi maskadan istifadə, gigiyena-sanitariya qaydalarına və sosial məsafəyə riayət edilməsi idi. Hava-damcı yolu ilə yoluxan xəstəliklərin sayı artırsa, deməli, onların COVID-19-a yoluxmaq ehtimalları da yüksəkdir. Əhali arasında sürətlə yayılan virus xəstəlikləri böyük alovlanmalara səbəb ola bilər" - deyə o bildirib.

## Həkimlər virusa yoluxmamaq üçün vaksinasiyanı vacib hesab edirlər

Aişə Kərimova deyir ki, kəskin respirator virus infeksiyaları və qripdən qorunmağın ən yaxşı yolu vaxtında aparılan profilaktik tədbirlər və peyvəndlənməkdir: "Peyvənd insanları xilas edir, yoluxma ehtimalını azaldır, COVID-19-un və mövsümi qriplərin ağır fəsadlarından qoruyur. Vaksin orqanizmin immunitetini artırır və əhalinin sağlamlığının qorunmasına yardım edir. Vaksinasiya olunmayan şəxslər qripi daha ağır keçirirlər".

Həkim onu da qeyd edir ki, qripdən, hava-damcı ilə yayılan digər kəskin respirator virus infeksiyalarından qorunma yolları eynidir: "Qış aylarında insanların qapalı məkanlarda daha çox toplanması, yaxın təmasların artması, otaqların daha az havalandırılması, immunitetin fəsli zəifləməsi və sair faktorlar yoluxmaların artmasına səbəb olur. Gigiyena qaydalarına əməl etmək, xəstələrlə sıx təmasdan çəkinmək, sosial məsafəni gözləmək, insanların kütləvi toplaşdığı məkanlarda olmamaq, əlləri tez-tez sabunla yumaq və ya dezinfeksiya etmək tövsiyə olunur. Xəstəliyə yoluxmuş şəxslər isə mütləq qaydada birdəfəlik tibbi maskalar taxmalı və özlərini ətrafdakılardan təcrid etməlidirlər".

## Düzgün qidalanma önəmlidir

Mütəxəssislər bildirirlər ki, balanslaşdırılmamış və yetərsiz qidalanma da immuniteti zəiflədərək orqanizmi müdafiəsizləşdirir, xəstəliklərə yoluxma riskini artırır və onun gedişatını ağırlaşdırır.

Ona görə də xəstəlik zamanı maye və mineral balansını təmin etmək vacibdir. Bədən temperaturunun sabit saxlanılması və infeksion toksinlərin orqanizmdən xaric olunması üçün sutkada 1.5-2 litr maye qəbul edilməlidir. Temperaturun qalxdığı dövrlərdə maye qəbulu artırılmalı və bədən yetərli enerji ilə təmin olunmalıdır.

Kəskin respirator virus infeksiyalarının profilaktikası zamanı məktəb, universitet və digər qapalı ictimai məkanlarda dezinfeksiya tədbirləri aparılmalı, otaqların havası mütəmadi olaraq dəyişdirilməli, qapı dəstəkləri tez-tez silinməlidir. Əllərin müntəzəm yuyulması, xüsusilə də insanların çox olduğu qapalı, havasız məkanlarda maska taxılması kimi sadə, lakin effektli ehtiyat tədbirlərini yaddan çıxarmamalıyıq. Əgər biz ayıq-sayıqlığımızı qoruyub saxlasaq və effektivliyindən əmin olduğumuz tədbirlərin köməyilə özümüzü qorusaq, bu xəstəliklərin öhdəsindən gəlməyi bacararıq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Avropa İttifaqının 27 ölkəsi razılığa gəldi

## Rusiyaya qarşı doqquzuncu sanksiyalar paketi müzakirə aparılmadan təsdiqlənib

Avropa İttifaqına (Aİ) üzv olan 27 ölkənin səfirləri Ukraynadakı hərbi əməliyyatlara görə Rusiyaya qarşı doqquzuncu sanksiyalar paketi ilə bağlı prinsipial razılığa gəliblər. Dünən yekun sənəd yazılı prosedurla, yəni əlavə müzakirələr aparılmadan təsdiqlənib.



Qərb KİV-in xəbərinə görə, bu qadağalar dronların və onlar üçün hissələrin idxalına, bank sektoruna və Rusiyada dağ-mədən sənayesinə investisiya qoyuluşuna şamil olunur.

Daha əvvəl bildirilmişdi ki, Aİ-yə üzv ölkələr arasında yeni anti-Rusiya sanksiyalar paketinin bəndləri ilə bağlı fikir ayrılıqları yaranıb, xüsusən də qeyd edildiyi kimi, Macarıstanın Baş naziri Viktor Orban üç fiziki şəxsin ilkin sanksiyalar siyahısından çıxarılmasının tərəfdarı olub.

Aİ diplomatlarından birinin sözlərinə görə, Almaniya da öz növbəsində qlobal ərzaq təhlükəsizliyini qorumaq üçün Rusiya gübrələrinin idxalına qoyulan qadağaya istisnalarla bağlı danışıqlar aparmağa çalışıb. O əlavə edib ki, Aİ-nin bir sıra digər dövlətləri də müəyyən ölkələr üçün Rusiya mədən sənayesi ilə biznes fəaliyyətinə görə tətbiq olunan qadağalardan istisnalar axtarırlar.

Bu, Çexiyanın Aİ Şurasına sədrliyi çərçivəsində razılaşdırılmış üçüncü sanksiyalar paketidir.

Uzun sürən danışıqlardan sonra Aİ ölkələri hələ də blokun limanları vasitəsilə Rusiya gübrələrinin ixracına qoyulan məhdudiyyətlərin yumşaldılması ilə bağlı fikir ayrılıqlarını aradan qaldıra biliblər.

Bundan əlavə, Avropa İttifaqının liderləri nəhayət, Kiyevə 18 milyard avro məbləğində yardımın ayrılması barədə razılığa gələ biliblər.

Çexiyanın Baş naziri Petr Fiala bununla əlaqədar deyib: "Mən məmnunam ki, biz Ukraynaya dəstəyimizə vahid yanaşmanı davam etdirə bildik və bu gün Ukraynaya makromaliyyə yardımı və yeni sanksiyalar paketini təsdiqlədik".

Buna baxmayaraq, qazın qiymətinin yuxarı həddinin müəyyən edilməsi məsələsi həll olunmamış qalır.

Petr Fiala bildirib: "Biz energetika nazirlərinin bazar ertəsi keciriləcək fövqəladə iclasında məsələnin bağlanması ilə bağlı razılığa gəlmişik. Düşünürəm ki, hər kəs bu son tarix haqqında bilir və güzəştə getməyə hazırdır".

Brüsseldə keçirilən görüşdə Aİ liderləri, həmçinin Bosniya və Herseqovinaya Aİ-yə namizəd statusunun verilməsi ilə bağlı razılığa gəlib, İranda insan haqları pozuntularını pisləyib və Xorvatiyanın Şengen zonasına daxil olmasını alqışlayıblar.

Bundan əvvəl KİV Polşa və Baltikyanı ölkələrin mövqeyinə görə blokun Aİ-nin 27 ölkəsinin hamısının paketlə bağlı razılığını ala bilmədiyi barədə məlumat vermişdi. Onlar Rusiyadan gələn gübrələrə qarşı sanksiyaların yumşaldılmasına qarşı çıxırdı.

Polşa və bir sıra digər Baltikyanı ölkələr Rusiya gübrələrinin Avropa limanları vasitəsilə, o cümlədən sanksiyaya məruz qalmış milyarderlərə məxsus şirkətlər üçün ixracının asanlaşdırılmasına etiraz ediblər. Digər ölkələr gübrələrin ixracına BMT-nin Ümumdünya Ərzaq Proqramı tərəfindən icazə verilməsinə çağırıblar, çünki gübrələrə qarşı sanksiyalar inkişaf etməkdə olan və yoxsul ölkələrin ərzaq təhlükəsizliyini təhdid edir.

Polşa və Baltikyanı ölkələr opponentlərini özlərini aldatmamağa çağırırdı - onların fikrincə, sanksiyaların yumşaldılması "rus oliqarxları" üçün boşluq yaradacaq.

Xatırladaq ki, Avropa İttifaqı formal olaraq sentyabr ayında Rusiya gübrələrinin üçüncü ölkələrə ixracına qoyulan bütün məhdudiyyətləri rəsmi olaraq ləğv edib, ABŞ isə bunu mart ayında gerçəkləşdirib.

Brüssel ötən ayın sonlarında doqquzuncu paket üçün siyahılar hazırlamağa başlayıb. Keçən həftə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen sanksiyaların doqquzuncu paketi çərçivəsində Aİ-nin təxminən 200 nəfərə, üç banka, dörd telekanala və hərbi sənaye kompleksinin bir sıra şirkətlərinə məhdudiyyətlər qoymağı planlaşdırdığını bildirib.

Avropa Komissiyasının rəhbəri qeyd edib ki, Rusiyanın dağ-mədən və enerji sektorlarına qarşı əlavə iqtisadi tədbirlər də tətbiq olunacaq.

Rusiyanın Ukraynadakı "xüsusi hərbi əməliyyatı"nın başlamasından bəri Avropa İttifaqı səkkiz dəfə sanksiyalar tətbiq edib. Qəbul edilmiş paketlərə Rusiya banklarına və iş adamlarına qarşı məhdudiyyətlər, kömür və neftin idxalına qadağalar və digər tədbirlər daxildir.

Aİ oktyabr ayında səkkizinci sanksiya paketini təsdiqləyib və orada Rusiya neftinin maksimal qiyməti mexanizmi yer alıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri atəşə tutulub

Dekabrın 16-sı saat 12:00-dan saat 13:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam, Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, dekabrın 16-sı saat 13:05 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 538-97-96, 539-84-41, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6491
Sifariş 3604
Qiyməti 40 qəpik